www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 aprel 2016-cı il Cümə № 86 (6407) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda bir gündə 3 nəfər özünü asdı

yazısı səh.3-də

**Gündəm**

### Bu gün İlqar Məmmədov azadlığa buraxıla bilər



REAL sədri əşyaları ilə birlikdə Şəkiyə aparılıb; azadlıqda olmasına baxmayaraq, Tofiq Yaqublu da prosesdə iştirak edəcək

yazısı səh.3-də

### BMT baş katibi dünyadakı vəziyyətə görə Bakıya gəlmədi

yazısı səh.8-də

### Banklar müştərilərin sirrini yayır-kütləvi narazılıq var

yazısı səh.10-da

### Qərbdən Yunuslara olan sevginin sirri-iki zidd mövqe

yazısı səh.4-də

### "Yanan bina işi" məhkəmədə-həqiqət üzə çıxacaqmı?

yazısı səh.10-da

### YAP-ın yardım təşəbbüsü: müxalifət həm razıdır, həm narazı

yazısı səh.13-də

### Güney Qafqazı itirmək qorxusu Kremli hərəkətə gətirib

yazısı səh.9-da

### Azərbaycanda məhkum sayı ən yüksək rəqəmə çatıb-24 min...

yazısı səh.10-da

### Yanardağda yanan təkcə dağ deyil, həm də qiymətlərdir-reportaj

yazısı səh.11-də

### Azərbaycandan mühacirlərin sayı azalıb

yazısı səh.13-də

### Yeni yaradılan iqtisadi beyin mərkəzi necə işləyəcək?

yazısı səh.12-də

### Supermarket rəhbərlərinin müraciəti iki nazirliyi üz-üzə qoyub

yazısı səh.12-də

## Rusiya xarici işlər naziri İrəvanda məxfi danışıqlara başladı

# QARABAĞ ÜÇÜN TƏHLÜKƏLİ MƏRHƏLƏ-SÜLHMƏRAMLILAR ƏVƏZİNƏ NƏ...

Rusiyanın baş diplomatı Ermənistana "əlidolu" gəlib; Moskva ermənilərin həm könlünü almaq, həm də onları güzəştli həllə razı salmaq niyyətindədir; politoloq: "Azərbaycan Rusiyanın sülhməramlı qüvvələr və Avrasiya layihələri tələbləri ilə razılaşmasa, 5 rayon da qayıtmayacaq..."




yazısı səh.5-də

## "1000 bərəkət, halal nemət" leş ətlərdən istifadə edir? - şok iddia

### Ən böyük kolbasa istehsalçısı əti haradan almasını gizlədir

yazısı səh.3-də



*Akif Nağı:*
**"Araz Əlizadənin alnının ortasından bir yumruq vuracam, şok keçirəcək"**

yazısı səh.4-də



**Yenə "Qobl variantı": Mehri dəhlizi**

yazısı səh.8-də



**Əkrəm Əylislinin ittiham olunduğu maddə ağırlaşdırıldı**

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 86 (6407) 22 aprel 2016



# Nərgiz Yaqublunun il mərasimi keçiriləcək

**Gənc siyasi fəal Nərgiz Yaqublunun vaxtsız ölümündən bir il ötür. Bununla əlaqədar Yaqublu ailəsi il mərasimi verəcək. Mərasim aprelin 23-də saat 13:00-da olacaq. Bu barədə müsavat.com-a Müsavat başqanının müavini Tofiq Yaqublu məlumat verdi: "Qaraçuxurdan Suraxanıya gedilən yolun üzərində "LUKoil" yanacaqdoldurma məntəqəsi var. Məntəqənin arxasında Xəzri (keçmiş "Haça-dağ") mərasim evi var. Mərasim orada aprelin 23-də saat 13:00-da başlayacaq".**

Xatırladaq ki, Nərgiz Yaqublu bir il öncə Rusiyanın Tomsk şəhərindəki xəstəxanada müalicə olunarkən dünyasını dəyişib. O, Hepatit C xəstəliyindən əziyyət çəkirdi. Ölümündən bir həftə əvvəl həkimlər gənc xanımın övladını dünyaya gətirsələr də, onun həyatını xilas etmək mümkün olmamışdı. Nərgiz Yaqubludan ailəsinə qalan yeganə yadigar Kənan adlı bir yaşlı oğludur.

❑ Cavanşir ABBASLI

# Azərbaycanla İran birgə minik maşını istehsal edəcək

**Azərbaycan və İran şirkətləri avtomobil və müvafiq ehtiyat hissələrinin istehsalı sahəsində əməkdaşlıq edəcək. "Report" xəbər verir ki, Bakıda Azərbaycanın "Azeurocar" MMC və İranın "Iran Khodro" şirkəti arasında imzalanmış anlaşma memorandumuna əsasən, şirkətlər Azərbaycanda minik avtomobilləri və ehtiyat hissələrinin birgə istehsalını həyata keçirəcəklər.**

İlkin olaraq layihə üzrə istehsal edilməsi məqsədəuyğun olan avtomobil modelləri müəyyənləşdiriləcək, sonra isə layihə üzrə biznes plan hazırlanacaq. Layihənin Neftçala Sənaye Məhəlləsində həyata keçirilməsi nəzərdə tutulur. Zavodun iki ilə tikilməsi planlaşdırılır.

# Beynəlxalq tədbirlər üçün 100 yeni təcili yardım avtomobili alınıb

**Bu il Bakıda keçiriləcək yeniyetmələr arasında beynəlxalq futbol çempionatı və Formula - 1 yarışlarında idmançılara, xarici ölkələrdən gələn azarkeşlərə və tamaşaçılara ilkin tibbi yardım etmək üçün Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının tibbi heyətinin hazırlıq məşğələlərinin keçirilməsi nəzərdə tutulub.**

APA-nın xəbərinə görə, bunu Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi Rauf Nağıyev bildirib. R. Nağıyev deyib iki, Bakıda keçiriləcək beynəlxalq səviyyəli tədbirlərdə təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin yüksək səviyyədə təşkili məqsədilə zəruri işlər görülür.

Onun sözlərinə görə, həmin tədbirlər üçün Bakıya 100 yeni müasir avadanlıqlarla təchiz olunan təcili yardım avtomobilləri gətirilib. R.Nağıyev qeyd edib ki, yarışlarda hər kəsə təcili yardım göstərmək üçün kifayət qədər həkim briqadası var: "Ehtiyac olarsa, əlavə həkim briqadaları da bu işə cəlb ediləbilər. "Bakı-2015" Avropa Oyunlarında stansiya bölmələrinin 200-ə yaxın seçilmiş həkimi təlim kurslarına cəlb olunub. Bu il keçiriləcək beynəlxalq yarışlarda da həmin heyət yenidən təlimlərə cəlb ediləcək, onların xidmətlərindən istifadə olunacaq".

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# Tankçımız 15 gündür komadadır



**Başından güllə yarası alan müddətdən artıq xidmət edən hərbçimiz Razi Cavadov hələ də komadan ayılmayıb. Bu barədə onun atası Vidadi Cavadov "Qafqazinfo"ya müraciətində məlumat verib. O bildirib ki, müddətdən artıq hərbi xidmət keçən oğlu hazırda Hərbi Hospitalda müalicə olunur və komadadır:**

"Bizi yanına buraxmırlar, amma həkimləri deyir ki, vəziyyəti yaxşılığa doğru dəyişir. Gəncədə xəstəxanada olanda bir dəfə yanına buraxmışdılar, onda gördük. Həmin vaxt üzündə şiş var idi. İndi burdakı həkimlər deyir həmin şiş yoxdu".

Xatırladaq ki, snayper gülləsi ilə başından ağır yaralanan "Rembo" ləqəbli hərbçimiz gözünün birini itirib. Həkimləri deyib ki, güllə gözünü və başını dağıdıb deyə vəziyyəti ağır olaraq qalır. Onun xarici ölkədə müalicəsi ilə bağlı Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisinə müraciət edilib. Lakin bildirilib ki, komadan ayıldıqdan sonra əgər yenidən sağlamlığına hər hansı təhlükə görünərsə, o zaman Türkiyədə müalicəyə göndərilə bilər. Hazırkı vəziyyətdə isə onu uzaq yola çıxarmaq həyatı üçün təhlükəli ola bilər.

**Razinin atası deyir ki, o özü də tankçıdır və ata-oğul bir cəbhədə döyüşüblər:** "Razi 3 körpə uşaq atasıdır, 2 oğlu, 1 qızı var".



# Poroşenko Rusiya filmlərinə qadağa qoydu

**Ukrayna prezidenti Pyotr Poroşenko 2014-cü il yanvarın 1-dən sonra çəkilmiş Rusiya filmlərinin yayımlanmasına qadağa qoyan qanunu imzalayıb.**

Rusiyanın NTV telekanalı xəbər verir ki, müvafiq göstəriş Ali Radanın saytında dərc olunub. Qadağa nəinki bədii filmlərə və seriallara, həmçinin televiziya proqramlarına və verilişlərinə də aiddir. Kiyev hökumətinin fikrincə, bu addım "Ukraynanın informasiya sahəsində milli təhlükəsizlik səviyyəsinin yüksəlməsinə" xidmət edəcək.

AzərTAc xatırladır ki, son iki il ərzində Ukrayna hökuməti "informasiya təcavüzünə" qarşı mübarizə adı ilə Rusiyanın 430 film və serialını "qara siyahı"ya salıb. Həmçinin ölkədə "milli təhlükəsizliyə təhdid" yaradan 80-dən çox rusiyalı mədəniyyət xadiminin siyahısı tərtib olunub, onların iştirakı ilə çəkilən filmlərin yayımı qadağan edilib.

Ukraynada bununla yanaşı, mədəniyyət xadimlərinin "ağ siyahı"sı da mövcuddur. Bu siyahıya hazırkı Kiyev hökumətinə dəstəyini ifadə edən Andrey Makareviç, Liya Axedjakova, Mixail Jvanetski, Arnold Şvartsnegger, Corc Kluni və başqaları daxildir.

# Putinlə Ərdoğan bir siyahıda



**Rusiya prezidenti Vladimir Putin və ABŞ-da prezidentliyə namizəd Donald Tramp dünyanın 100 nüfuzlu insanı siyahısına düşüblər. "Qafqazinfo" xəbər verir ki, "Time" jurnalı dünyanın ən nüfuzlu adamlarının illik top-100 siyahısını dərc edib. "Liderlər" siyahısında birinci yeri Beynəlxalq Valyuta Fondunun icraçı direktoru Kristin Laqard tutub.**

Siyahıda ilk üçlükdə ABŞ-ın dövlət katibi Con Kerri və Almaniya kansleri Angela Merkel qərarlaşıb. Respublikaçılar partiyasından ABŞ prezidentliyinə namizəd Donald Tramp isə dördüncü yerdədir. Siyahıda yer alan ABŞ prezidenti Barak Obama 13, Rusiya prezidenti Vladimir Putin isə 29-cu pillədədir. Onun ardınca isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan gəlir.

# Hava kəskin soyuyacaq



**Havanın temperaturu ötən günlərlə müqayisədə 7-12 dərəcə aşağı enəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin məlumatına görə, Bakıda və Abşeron yarımadasında aprelin 22-də hava şəraitinin qeyri-sabit keçəcəyi, güclü şimal-qərb küləyinin əsəcəyi gözlənilir.**

Azərbaycanın rayonlarında aprelin 22-də hava şəraitinin dəyişəcəyi, qeyri-sabit keçəcəyi, qərb küləyinin ayrı-ayrı yerlərdə arabir güclənəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə sulu qara keçəcəyi gözlənilir. Havanın temperaturu ötən günlərlə müqayisədə 7-12 dərəcə aşağı enəcək.

# 80 yaşlı kişi arvadını öldürüb



**Bakıda qətl törədilib. Nəsimi Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə paytaxtın Nəsimi rayonunda qeydə alınıb. Rayon sakini, 80 yaşlı Abbasəli Hüseynov həyat yoldaşı, 80 yaşlı Nisə Kərimovanı bıçaqlayaraq öldürüb. Hadisəni törədən A. Hüseynov saxlanılıb.**

# Emin Millidən gözlənilən cavab gəldi

## "İndiyədək heç bir qanunsuz fəaliyyətlə məşğul olmamışıq"

**Xəbər verdiyimiz kimi, Meydan TV-nin vəzifəli şəxsləri barəsində Cinayət Məcəlləsinin 192.2.2.(qanunsuz sahibkarlıq-külli miqdarda gəlir əldə etməklə), 213.2.2 (külli miqdarda vergiləri ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə-seçkilərin və ya referendumun nəticələri saxtalaşdırmaqla və ya ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi açılıb. Hazırda Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində 152006048 saylı cinayət işinin istintaqı aparılır.**

Bununla paralel olaraq, aprelin 19-da Meydan TV-nin direktoru Emin Millinin qayınatası, tanınmış xalq rəssamı Mayis Ağabəyov prezident İlham Əliyevə oğlu Nazim Ağabəyovun həbsi ilə bağlı müraciət edib. M.Ağabəyov Emin Millinin Azərbaycan dövlətinin əleyhinə kampaniya apardığını və kürəkəninin fəaliyyətinin yaramaz olduğunu bildirib. 75 yaşlı xalq rəssamı öncə yaradıcılığı və aldığı mükafatlar barədə xatırlatmalar edib, prezident təqaüdü aldığını yazıb. Qayınatası müraciətində yazıb ki, E.Milli Azərbaycan dövləti əleyhinə təbliğat aparır. "Mən onun bu hərəkətinə heç zaman razı olmamışam, əvvəllər dəfələrlə ona iradımı bildirsəm də faydası olmayıb. Buna görə də onunla bütün əlaqələri kəsmişəm" yazan qayınatanın müraciəti artıq rezonans doğurub.

**Elə müraciətdən və cinayət işi ilə bağlı xəbərin yayılmasından sonra E.Millidən də reaksiya gəlib. E.Milli bildirib ki, Meydan TV-nin direktoru olaraq indiyədək heç bir qanunsuz fəaliyyətlə məşğul olmayıblar:** "Gördüyümüz bütün işlərin nəticəsi və maliyyə hesabatları vaxtaşırı fəaliyyət göstərdiyimiz ölkənin əlaqədar qurumlarına təqdim olunur. Meydan TV-nin vəzifəli şəxslərinin Azərbaycanda heç bir biznes fəaliyyəti yoxdur. Bütün jurnalistlərlə əməkdaşlığımız yalnız ictimai əsaslarladır. Bu səbəbdən də qanunsuz sahibkarlıq, küllimiqdarda vergidən yayınma kimi maddələri absurd hesab edirik. Meydan TV-nin yeganə məqsədi müstəqil və peşəkar media orqanı olmaq, beynəlxalq konvensiyalar və qaydalar çərçivəsində fəaliyyət göstərməkdir. Bu günə qədər də qarşımıza qoyduğumuz məqsəddən kənar heç bir iş görülməyib. Bizim yeganə "cinayətimiz" söz azadlığı hüququndan istifadə etməyimizdir. Buna görə də hesab edirik ki, açılan cinayət işi sırf bizimlə əməkdaşlıq edən jurnalistlərin gözünü qorxutmaq, onları Meydan TV-yə informasiya ötürməkdən çəkindirmək məqsədi daşıyır. Halbuki Azərbaycanda Meydan TV adından danışmaq səlahiyyətində olan şəxs yoxdur və heç bir jurnalist bizim fəaliyyətimizə görə cavabdehlik daşımır".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 86 (6407) 22 aprel 2016

# Bu gün İlqar Məmmədov azadlığa buraxıla bilər

## REAL sədri əşyaları ilə birlikdə Şəkiyə aparılıb; azadlıqda olmasına baxmayaraq, Tofiq Yaqublu da prosesdə iştirak edəcək

**Həbsdə olan REAL Hərəkatının sədri İlqar Məmmədovun, nəhayət, məhkəmə günü bəlli olub. Bu gün-aprelin 22-də saat 14:30-da Şəki Apelyasiya Məhkəməsində hərəkat sədrinin məhkəməsi olacaq. Onunla eyni maddə üzrə həbs olunan, ötən ay verilən əfvlə azadlığa çıxan Müsavat başqanının müavini Tofiq Yaqublu da məhkəmədə iştirak edəcək.**



Belə ki, başqan müavini məhkəməyə çağırılıb. Bu barədə ona aprelin 20-də xəbər verilib. Azadlıqda olan bir şəxsin nədən məhkəməyə təqsirləndirilən şəxs qismində cəlb olunması müəmmalıdır.

REAL sədri məhkəmədə iştirakdan imtina etməsinə baxmayaraq, xüsusi etapla Şəkiyə aparılıb. Onun əşyaları da özü ilə bərabər götürülüb. Bu, onun azadlığa çıxacağına olan ümidləri artırıb.

Qeyd edək ki, bu ayın əvvəllərindən başlayaraq, İ.Məmmədovun aprelin sonlarında məhkəməsinin olacağı və onun azadlığa buraxılacağı barədə mətbuatda xəbərlər dolaşırdı. Hətta Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev də bu barədə açıqlama verərək, REAL sədrinin azadlığa buraxılacağının anonsunu vermişdi.

**Bu gün keçiriləcək məhkəmə prosesi ilə bağlı "Yeni Müsavat"a danışan REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova yayılan xəbərləri təsdiqlədi:** "Doğrudur, İlqar artıq xüsusi etapla Şəkiyə aparılıb. Əşyaları da özü ilə götürülüb. Açığı, inanmırdıq, amma göründüyü kimi, məhkəmə prosesi təyin olundu. Tələsik məhkəmə prosesinin təyin olunduğunu demək düzgün deyil. Çünki çoxdan gözlənilirdi. Nə qərar veriləcəyini bilmirik. Prosesdə nələrin olacağını deyə bilmərəm. Xəbərlərdə qeyd olunurdu ki, aprelin sonları İlqar Məmmədov azadlığa buraxılacaq. Xəbərlərin nə dərəcədə doğru olduğunu məhkəmədə görəcəyik. Sadəcə, səbirli olmaq lazımdır. Özü ilə aprelin 20-də danışmışıq. Məhkəmənin keçiriləcəyindən xəbərsiz idi. Ona ilk xəbəri mən verdim. Şəkiyə aparılacağı barədə də xəbərsiz idi. Yəqin ki, bizimlə danışdıqdan sonra Şəkiyə aparılıb".

**İ.Məmmədovun vəkili Fuad Ağayev bunları dedi:** "Məhkəməyə çox vaxt qalmayıb. Aprelin 22-də məhkəmə baxışı olacaq. Onun Şəkiyə aparılması, əşyalarının özü ilə götürülməsi doğrudur".

**REAL sədri ilə eyni məhkəmə prosesi olacaq Tofiq Yaqublu iştirakının vacib olduğunu söylədi:** "Anormal vəziyyət yaranıb. Bir neçə vəkillə danışmışam. Onların fikirləri də haçalanıb. Tutaq ki, Şəki Apelyasiya Məhkəməsi qərarı qüvvədə saxladı, yaxud cəzanı artırdı. O zaman nə olacaq? Bir yandan əfv sərəncamı, digər tərəfdən də məhkəmə gedir. İlqar Məmmədov və mənə niyə məhkəmə qurulmalıdır? Heç bir günahı olmayan şəxsləri həbsə atmaq nə demək? İlqar bəyin bu məhkəmədə azad edilməsi ümidləri var. Çünki məhkəmə qəfil təyin olundu. Prosesə bir sutka qalmış mənə xəbər verirlər ki, məhkəmədir. Belə hal olar? Vəkillə danışmalıyıq, prosesə hazırlaşmalıyıq. Əvvəldən bildiriş göndərilməli idi. Məhkəmədə iştirak edəcəm. Həbsdə olarkən bu instansiyada iştirakdan imtina ərizəsi yazmışdım. Həbsxana şəraitində yol gedib-gəlmək əziyyətlidir. O zaman ərizəmdən imtina edilmişdi ki, iştirakım olmadan proses keçirilə bilməz. O zaman çox narahat idim, çünki qatarla məhkəməyə getmək çətin idi. Amma indi rahatam, çünki azadlıqdayam. Məhkəmədə nə deyəcəklər, mənə maraqlıdır. Məndə olan məlumata görə, aprelin 21-də İlqar bəyi Şəkiyə aparıblar. Hətta onun əşyalarını da aparıblar. Bu onun məhkəmədən azad edilmə ehtimallarını yüksəldir. Bununla bağlı digər ehtimal da ondan ibarətdir ki, məhkəmənin açılışı ola bilər və proses yenə təxirə salınar, İlqar bəy də Şəki İstintaq Təcridxanasında saxlanılar".

Xatırladaq ki, İ.Məmmədovla T.Yaqublu 2013-cü ilin yanvarında İsmayıllıda baş vermiş kütləvi iğtişaşların təşkilində ittiham olunublar. İlqar Məmmədov 7, Tofiq Yaqublu isə 5 il müddətinə azadlıqdan məhrum edilib.

Apelyasiya Məhkəməsi hökmü ədalətli saysa da, 2015-ci ilin oktyabrında Ali Məhkəmə kasasiya şikayətinə baxaraq işi təkrar baxılmaq üçün Şəki Apelyasiya Məhkəməsinə göndərmişdi.

❑ Cavanşir ABBASLI

# Bakıda bir gündə 3 nəfər özünü asdı

**Son sutka ərzində Bakıda 3 nəfər intihar edib. Binəqədi rayon Goradil bağ massivindəki nömrəsiz evdə yaşayan 1982-ci il təvəllüdlü Məmmədova Aynurə İzzət qızı özünü həyətdəki talvardan kapron iplə asaraq intihar edib.**



Binəqədi qəsəbə sakini, 1957-ci il təvəllüdlü Məmmədov Səlimxan Əliyar oğlu isə özünü yaşadığı mənzildə asıb.

Oxşar hadisə Nizami rayonunda da baş verib. Keşlə qəsəbə sakini, 1946-cı il təvəllüdlü Ağacanov Akif Abdulla oğlu özünü yaşadığı evdə asıb.

A.Məmmədova və A.Ağacanovun xəstəlikdən əziyyət çəkdiyi bildirilir. Hər bir faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.(lent.az)

# Əvvəl YAP-ın siyahısından, indi Dövlət Komissiyasından çıxarıldı



**Prezident İlham Əliyev "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" sərəncamda dəyişiklik edib. Virtualaz.org-un AzərTAc-a istinadən xəbərinə görə, dəyişikliyə əsasən "Komissiyanın üzvləri" hissəsində "Rəbiyyət Aslanova - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, İnsan hüquqları komitəsinin sədri " sözləri "Bahar Muradova - Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri" sözləri ilə əvəz edilib.**

Qeyd edək ki, 2015-ci ildə keçirilən parlament seçkilərində R.Aslanovanın adı YAP-ın namizədlərinin siyahısından çıxarılmışdı.

Siyahıya salınmayan R.Aslanova "partiyamız necə məsləhət bilir, elə də olur. Mən bu partiyanın üzvüyəm və YAP-ın qərarına da hörmətlə yanaşıram. Həmin dairədən namizədliyini irəli sürmüş şəxsə uğurlar arzu edirəm. Hər şey dövlətimiz, ölkəmiz üçün..." demişdi.

109 saylı Balakən seçki dairəsindən Rəbiyyət Aslanovanın yerinə Nəsib Məhməliyev mandat alıb.

# Şirkət rəhbəri həbs edildi



**Bakıda dələduzluqda şübhəli bilinən "Topstap LTD" MMC-nin təsisçisi Mətanət Həsənovanın barəsində həbs-qətimkan tədbiri seçilib. APA-nın məlumatına görə, Səbayel Rayon Məhkəməsində Mətanət Həsənovanın barəsində 4 ay müddətinə həbs-qətimkan tədbirinin seçilməsinə qərar verilib. Həmin qərardan M. Həsənovanın verdiyi apelyasiya şikayəti isə təmin edilməyib.**

Qeyd edək ki, aprelin 11-də Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, Bakıda vətəndaşlara külli miqdarda ziyan vuran dələduz qadın saxlanılıb. Mətanət Həsənova ötən ilin noyabrından bu ilin martınadək vətəndaşları işə düzəltmək adı ilə aldadaraq onların xeyli miqdarda pulunu dələduzluq yolu ilə mənimsəyib.

Hazırda faktla bağlı istintaq davam etdirilir.

# "1000 bərəkət, halal nemət" leş ətlərdən istifadə edir? - şok iddia

## Ən böyük kolbasa istehsalçısı əti haradan almasını gizlədir

**Azərbaycanda murdar ətlərdən istifadə olunaraq kolbasa məmulatlarının hazırlanması haqda yazmışdıq. Ötən saylarımızda bu mövzuda apardığımız araşdırmanı dərc etmişdik.**

Bundan sonra redaksiyamıza Azərbaycanda satılan kolbasa məmulatlarının tərkibi haqda müxtəlif iddia xarakterli məlumatlar daxil olmağa başlayıb. Kolbasaların qiymətinin ətdən ucuz olmasına diqqət çəkən bəzi oxucularımız belə məhsulların istehsalında kenquru, zebu, at, eşşək və digər təkdırnaqlı, hətta caynaqlı, leş ətlərdən istifadə olunaraq hazırlanması haqda məlumatlar veriblər. Bildiriblər ki, bir çox rayonlarda kolbasa sexlərinin sayı-hesabı yoxdur və hətta belə məhsulların istehsalçısı olan böyük şirkətlərin mallarına da murdar ətlərin qatışdırılmamasına kimsə zəmanət verə bilməz.

Adının açıqlanmasını istəməyən mənbənin musavat.com-a verdiyi məlumata görə, "1000 bərəkət, halal nemət" adı ilə satılan məhsulları istehsal edən «Səhliyalı» şirkəti də leş ətlərdən gen-bol istifadə edir. Biz bu iddianın nə dərəcədə doğru, nə dərəcə yalan olduğu barədə bir fikir deyə bilmərik. Bu, yalnız o zaman mümkün olar ki, şirkət jurnalistləri istehsal prosesi ilə tanış edər.




Məlumatlı mənbə əməkdaşımıza «Səhliyalı» şirkətinin təqdimat filminə tamaşa etməyimizi tövsiyə edir. Qeyd edir ki, həmin 8 dəqiqəlik filmdə (https://www.youtube.com/watch?v=0zpy9vdF0fl) kolbasa və sosislərin Avropa istehsalı olan avadanlıqlar vasitəsilə ərsəyə gəldiyindən söhbət açılır. Lakin ətin haradan alınması haqda konkret məlumat verilmir. Videoçarxda kolbasaların istehsalında istifadə olunan ətlərin daşınması qənaətini formalaşdıran səhnə var, amma həmin səhnədə istehsalda istifadə olunan ətlərin birbaşa özünü göstərimirlər. Videoçarxda bir neçə yerdə istehsalda istifadə olunan ətlər ümumi şəkildə, uzaqdan göstərilsə də, həmin ətləri yaxından tamaşaçıya təqdim etməkdən yayınırlar. Kolbasa istehsalı üçün qarışıq məhsulların elevatora tökülməsi səhnəsində isə ağ rəngli, kvadrat şəklində olan, naməlum əlavə də görünür. Bu səhnədə də istehsalda istifadə edilən ət məhsulları olduğundan ötəri şəkildə üzərindən keçilir. Əvəzində istehsalın gigiyenik tələblərə cavab verən şəkildə olması təbliğ olunur. Üstü bəzəkli kolbasa və sosislər tamaşaçıya - gələcək istehlakçıya təqdim olunur. Əsas məsələ - kolbasa istehsalında istifadə olunan ətlərin görüntüsü arxa plana keçirilir. Ətlərin mənşəyi, haradan alınması haqda ümumi məlumatla kifayətlənirlər. Bu təsadüfdürmü?

"1000 bərəkət, halal nemət" Azərbaycan telekanallarında nümayiş olunan bir çox komediya seriallarının sponsorudur. Amma kolbasa istehsalının komediyaya, özü də tragik janrda çəkilən komediyaya çevrilməsi heç də yaxşı hal deyil.

Müvafiq qurumlar nəhayət ki, hərəkətə keçib kolbasa və kolbasa məmulatlarının istehsalında heç olmasa qoca inəklərin ətindən istifadə olunmasına nail olmalıdırlar.

Səhliyalı şirkəti ilə əlaqə saxlamağa, münasibət öyrənməyə göstərdiyimiz cəhdlər baş tutmadı. Bununla belə, şirkət rəsmilərinin mövqeyini dərc etməyə hazırıq.

❑ E.HÜSEYNOV

# QAT-la deputat arasında qalmaqal - yumruq hədəsi

## Akif Nağı: "Araz Əlizadənin alnının ortasından bir yumruq vuracam, şok keçirəcək"

**Qarabağ Azadlıq Təşkilatı ilə Azərbaycan Sosial Demokrat Partiyasının sədri, deputat Araz Əlizadə arasında günlərdir davam edən qarşıdurma səngimək bilmir. İttihamlar, təhqirlər havada uçur.**

Hər şey Araz Əlizadənin himnimizlə bağlı fikirləri ilə başlayıb. Deputatın dövlət himnimizi təhqir etməsi sosial şəbəkələrdə və mətbuatda geniş rezonans doğurub. Tanınmış simalar ASDP sədrini sərt şəkildə qınayıblar. QAT sədri Akif Nağının da Əlizadəni tənqid etməsi deputatı özündən çıxarıb. Mətbuata açıqlamalarında o, QAT üzvləri və rəhbəri barəsində təhqiredici fikirlər səsləndirib.

**Onun diqqətçəkən fikirləri bunlardır:** "Akif Nağı kimi mahiyyəti 5 qəpik olmayan insan mətbuatda mənim barəmdə xoş olmayan, savadsız sözlər deyib. Əbləhin söyüşünün özü tərifdir. Sosinternin Bakıda iclası keçiriləndə Akif Nağı bir yazıq arvadı üstümüzə göndərdi. Elə bilmişdi Luis Ayala ermənidir. Həmin gün axşam isə qərargahımızın şüşəsini sındırdılar. Akif özü həmişə gizlənir. Adama deyərlər, ay ağılsız, sözün var, dur gəl bura. Onu vursam elə vuracam ki, yerindən qalxa bilməyəcək. Akif Nağının QAT-ı qat bağlayıb. Təşkilat burada şüşə sındırmaqla məşğuldur. Bəyəm bu, azadlıq təşkilatıdır? Xeyr, gədə-güdənin yığıldığı yerdir".





**Deputat: "Onu elə vuracam ki, yerindən qalxa bilməyəcək"**

**Deputatın dedikləri ilə bağlı "Yeni Müsavat"a danışan QAT sədri Akif Nağı ona sərt cavab verdi:** "O, öz səviyyəsinə uyğun fikirlər səsləndirir. Ona görə də onun fikirlərinə bir o qədər vaxt ayırmaq istəmirəm. Himnimizin dəyişdirilməsi ilə bağlı fikirlərinə, sadəcə, münasibət bildirmişəm. Azərbaycan üçün bu məsələ vacibdir. Demişəm ki, Araz Əlizadənin bununla bağlılığı yoxdur. Yeni sahəsinə uyğun deyil. Dövlət atributları toxunulmaz olmalıdır. Sanki onun əlinə bəhanə düşdü. Elə sözlər deyir ki, mətbuatda üç nöqtə ilə verilir. Öz səviyyəsini göstərir. Məcbur olub bir dəfə də ona reaksiya verdim ki, otursun yerində, Qarabağ Azadlıq Təşkilatını qıcıqlandırmasın. Gündəmdə qalmaq üçün belə fikirlər səsləndirir. QAT-a qarşı tənqidi fikir səsləndirmək olar. Amma o, belə bir fikir deyib ki, QAT-a gədə-güdələr yığılıb. Çox böyük yekəbaşlıq edib. Üzvlərimiz çox qəzəblidir. Əgər nəsə bir hadisə baş versə, onun günahı Arazın özündə olacaq. Özünə hörmət edən, ağlı olan şəxs o cür ifadə işlətməz. Təşkilatımızda alimlər, ziyalılar və döyüşçülər var. Azərbaycanın hər yerində şöbələrimiz var. Bu günlər (dünən-red.) aprel döyüşləri ilə bağlı "Davam, yoxsa tamam" adında dəyirmi masamız oldu. Tanınmış şəxslər iştirak edirdilər. Ermənilər təşkilatımıza nifrət edirlər. Onları başa düşürük, amma deputat adını daşıyan birisinin bu mövqeyi səviyyəsizlikdir".

**QAT sədri deputatın ittihamlarının absurd olduğunu da qeyd etdi:** "Onun üzərinə heç kəsi göndərməmişik, qərargahının şüşəsini sındırmamışıq. Ola bilər ki, kimsə onun ermənilərlə əlaqəsinin olduğuna, onları dəfələrlə Bakıya dəvət etdiyinə görə belə addım atsın. Xatırlayırsınızsa, bir müddət öncə Araz Əlizadə Daşnaksütyun Partiyasının nümayəndələrini Bakıya dəvət etmişdi. Onlarla birlikdə tədbir keçirdi. Buna etiraz edərək, tədbir keçirilən yerin önündə aksiya keçirdik. O zaman Araz Əlizadə erməni ilə birlikdə ayaqyoluna qaçdı və orada gizləndi. Hansısa bir üzvümüz onların ofisinə gedib etirazını bildirə bilər. Amma planlı şəkildə kimisə onun üzərinə göndərməmişik. Səviyyəsiz şəkildə deyir ki, Akif Nağını elə vuracam, bir daha yerindən qalxa bilməyəcək. Buradan deyirəm ki, 70-ə yaxın yaşın var, güclə yeriyirsən, azacıq ağlın olsun. Bir məsələ var, "it hürər, karvan keçər". Karvan öz yolu ilə gedir, hər hürən itə tərəf çevrilsə, mənzil başına çata bilməz. Biz təşkilat olaraq yolumuzla gedirik. Araz kimilərə cavab verməyə nə vaxtımız, nə də həvəsimiz yoxdur. Bu baxımdan onun üzərinə getmək fikrim yoxdur. Amma haradasa qarşıma çıxsa, onun alnının ortasından bir yumruq vuracam, gözündən qığılcım çıxacaq. Ya öləcəkmi, ya da ağıllanacaqmı, bunu deyə bilmərəm, amma şok keçirəcək. Ölüb eləsə, hər kəs düşünsün ki, günah məndə deyil, onun özündədir. Amma çalışsın qabağıma çıxmasın. Təşkilat üzvləri barədə dedikləri nə qədər səviyyəsiz olduğunu göstərir. Hansısa üzvümüz onu çağırsa, gələcəkmi? Nəyə güvənib belə deyirsən? Əgər kimsə Arazı vursa, günahı özündədir. Hüquqi addımlar atıb, onu məhkəməyə verməyə həvəsimiz və vaxtımız yoxdur. Amma davamlı olsa, bu hal istisna deyil. Sən kimsən ki, sənin yanına, yaxud ofisinə gəlim? Məni və təşkilatımızı hədəf seçməyinin kökü var. Ermənipərəst olan şəxslərə qarşı mövqeyimiz daim birmənalı olub. Sadəcə, köhnə yaralarının təsiridir. Bu şəxslər ermənilərlə işbirliyində maraqlıdırlar. Ola bilsin ki, onların işbirlikləri ni pozuruq, hansısa maraqlarına toxunuruq".

❑ **Cavanşir ABBASLI**

# Qərbdən Yunuslara olan sevginin sirri-iki zidd mövqe

## Mehman Əliyev: "Belə bir tanınmış və qəbul edilən adama əlbəttə ki, böyük diqqət, böyük dəstək olmalıdır"

## Fəzail Ağamalı: "Ona görə ki, hər ikisi daim Azərbaycanın maraqları əleyhinə fəaliyyətdə olublar"

**Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusun və həyat yoldaşı, tanınmış politoloq Arif Yunusun müalicə üçün ölkədən xaricə çıxmalarına razılıq verilməsi ABŞ, Avropa Birliyi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, həmçinin bir sıra digər beynəlxalq təşkilatlar tərəfindən müsbət qarşılanıb. Hər iki keçmiş məhbus artıq bir neçə gündür Hollandiyadadır.**

**Leyla Yunusun vəkili Elçin Sadıqov** Yunusların müalicədən sonra Azərbaycana qayıdacaqlarını desə də, onların özləri hələ bu barədə fikir bildirməyiblər. Leyla Yunusla Arif Yunusun həbs olunduqları, həbsdə saxlandıqları və azad olunduqları dövrlərdə onlara olan çox böyük miqyaslı beynəlxalq diqqət və dəstək isə onların xaricə gedişinə imkan yaradılması zamanı da özünü göstərdi. Yunuslara bu qədər önəm verildiyi, Qərbdən onlara bu sevgi və diqqətin sirrinin nə olduğu maraq doğurmaya bilmir.



**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev bu barədə "Yeni Müsavat"ın sualına cavabında bildirdi ki, əsas dəstək və diqqət Leyla Yunusa verilir. Ona görə ki, Leyla Yunus Avropada və ABŞ-da nüfuzu olan Sülh və Demokratiya İnstitutunun rəhbəridir, dünyada tanınan fəal hüquq müdafiəçisidir:** "Nəzərə almaq lazımdır ki, Leyla Yunus Fransanın Şərəf Legionu Kavaleri Ordeni ilə mükafatlandırılmış hüquq müdafiəçisidir. Bu mükafat Fransanın ən yüksək mükafatı sayılır və hər adama verilmir. Leyla Yunus eyni zamanda çoxlu sayda beynəlxalq mükafatlar alıb. Almaniyanın, Böyük Britaniyanın, Belçikanın, Hollandiyanın, ABŞ-ın bir sıra mükafatlarına layiq görülüb. Belə bir tanınmış və qəbul edilən adamın taleyinə əlbəttə ki, böyük diqqət, böyük dəstək olmalıdır. Arif Yunus isə Leyla xanımın həyat yoldaşı olmaqla yanaşı, tanınmış politoloqdur, konfliktoloqdur, alimdir. Onun xeyli kitabları, araşdırmaları var. Arif Yunus bir sıra beynəlxalq qurumların ekspertidir. Hətta Eduard Şevardnadzenin Gürcüstan prezidenti olduğu zamanlar onun yanında milli məsələlər, konfliktlər üzrə şuranın üzvü idi. Bütün bunlara görə Arif Yunus da diqqətdədir. Onların hər ikisinin fəaliyyətləri daim beynəlxalq qurumlarla sıx olub. Onlara olan diqqət və hörmətə təəccüblənmək lazım deyil ".

**Deputat Fəzail Ağamalı isə bildirdi ki, Leyla və Arif Yunus dünyadakı erməni lobbisi və erməni lobbisinin təsiri altında olanlar tərəfindən sevilirlər. Ona görə ki, hər ikisi daim Azərbaycanın maraqları əleyhinə fəaliyyətdə olublar və bu fəaliyyətləri ermənilərə sərf edib:** "Yunusların dünya siyasətində yeri və rolu yoxdur. Sadəcə olaraq, onların arxasında dayanan, onlara sevgi ilə yanaşan aktiv erməni diasporasıdır, Ermənistanı dəstəkləyən qüvvələrdir. Erməni diasporasının formalaşdırdığı erməni lobbisi daim Leyla Yunusun verdiyi informasiyalardan Azərbaycana qarşı istifadə etmək üçün yararlanıblar. Hətta birinci Qarabağ müharibəsində də Leyla Yunus əri ilə birlikdə Ermənistanın maraqlarına xidmət edirdi. Müdafiə Nazirliyində mətbuat xidmətinin rəhbəri olaraq Leyla Yunus müharibə zamanı Ermənistana informasiyalar ötürürdü. Leyla Yunusun Ermənistan və dünya erməni diasporasına bu cür çox xidmətləri olub. Ona görə də hələ də ona dəstək verirlər ki, həyatda qalıb ona xidmətlərini davam eləsin".

**F.Ağamalının fikrincə, Leyla Yunus və Arif Yunus çox güman ki, Azərbaycana qayıtmayacaqlar:** "Yunuslar Azərbaycanın maraqlarına qarşı fəaliyyətlərinə görə əldə etdikləri vəsaitlərlə Avropa ölkələrində aldıqları malikanədə ömürlərini başa vuracaqlar. Hər halda, ənənəvi fəaliyyətlərini indi də Avropadan Azərbaycana qarşı davam etdirəcəklər".

❑ **Etibar SEYİDAĞA**



Azadlıq

## Əkrəm Əylislinin ittiham olunduğu maddə ağırlaşdırıldı

**Əkrəm Əylisliyə qarşı başladılan cinayət işi başqa maddəyə tövsif edilib.**

"Qafqazinfo"nun verdiyi xəbərə görə, bu barədə vəkil Elçin Sadıqov məlumat verib. O bildirib ki, bu gün (dünən-red.) Əkrəm Əylisli ilə birlikdə Hava Nəqliyyatında Polis İdarəsinin istintaq şöbəsində olublar:

"Əkrəm Əylisliyə qarşı Cinayət Məcəlləsinin 221.1-ci (xuliqanlıq) maddəsi ilə qaldırılmış cinayət işi CM-in 315.1-ci (Hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq etmə) maddəsinə tövsif edildi. Həmin maddədə 3 ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

CM-in 315.1-ci maddəsi ilə istintaq aidiyyəti prokurorluq olduğundan cinayət işi istintaq davam etdirilməsi üçün Bakı Şəhər Prokurorluğuna göndərildi".

YENİ MÜSAVAT
N 86 (6407) 22 aprel 2016

# Rusiya xarici işlər naziri İrəvanda məxfi danışıqlara başladı

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov dünən iki günlük səfərlə Ermənistana gəlib. İrəvan səfərinin hansı nəticələr verəcəyi Dağlıq Qarabağ münaqişəsi ilə maraqlanan hər kəsin diqqət mərkəzindədir. Bölgəyə ilk səfəri zamanı, aprelin 7-də Bakıda olarkən "danışıqlar masası ətrafında bir neçə həll variantı var" deyən Rusiya baş diplomatının Ermənistana hansı sənədi apardığı gündəmin əsas suallarındandır.**



# Qarabağ üçün təhlükəli mərhələ - sülhməramlılar əvəzinə nə...

## Rusiyanın baş diplomatı Ermənistana "əlidolu" gəlib; Moskva ermənilərin həm könlünü almaq, həm də onları güzəştli həllə razı salmaq niyyətindədir; **politoloq:** "Azərbaycan Rusiyanın sülhməramlı qüvvələr və Avrasiya layihələri tələbləri ilə razılaşmasa, 5 rayon da qayıtmayacaq..."

Ermənistanda neçə gündür davam edən anti-Rusiya aksiyaları, "Rusiya, Qarabağdan əlini çək!" tələbləri ilə keçirilən yürüş-mitinqlər, erməni hakimiyyətində və cəmiyyətində müşahidə olunan antirus ovqatı zahirən belə qənaət yaradır ki, masa üzərindəki plan Azərbaycanın faydasınadır. Ancaq hələ ki nə Bakı, nə də Moskvadan detallı bir açıqlama verilmədiyindən müəmmalar qalmaqdadır. Ermənistanın xarici işlər nazirinin müavini Şavarş Köçəryan Lavrovun səfəri ərəfəsində yalnız bunu deyib ki, erməni və rus mediasında Qarabağdakı danışıqlarla bağlı yayılan məlumatların bir çoxu həqiqəti əks etdirmir: "Doğrudur, həmsədrlərin təklif etdikləri variant erməni tərəfinin istəyinə uyğun deyil, amma orda qarşılıqlı güzəşt məsələsi, həmçinin referendum ideyası da var" - nazir müavini əlavə edib.

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə Lavrovun Ermənistana əliboş getməyəcəyini açıqlayıb.** "Sergey Lavrov heç vaxt heç yerə əliboş getmir", deyən XİN sözçüsü Qarabağ müzakirələrinin olacağını və həll planının müzakirə predmeti olacağını təsdiqləyib. Xatırladaq ki, S.Lavrov Bakıda olarkən masa üzərindəki sənədin bir sıra komponentlərinin razılaşdırıldığını bildirmişdi. Ancaq onun "Azərbaycan nə Avrasiya İqtisadi Birliyinə, nə də ki Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvdür. Lakin mən bu vəziyyətin dəyişə biləcəyinə ümid edirəm" sözləri Bakının seçim qarşısında qaldığı barədə təxminlərə yol acımışdı.

Əksər müşahidəçilər bu qənaətdədir ki, Rusiya aprel əməliyyatlarına susqunluq nümayişinin qarşılığı olaraq Kazan sənədinə Bakının razılığını alıb, üstəlik, Azərbaycanın adıçəkilən təşkilatların çətiri altına keçməsini istəyib. Hələlik rəsmi Bakı məsələ ilə bağlı qəti mövqeyini açıqlamayıb. Ancaq hesab olunur ki, "Lavrov planı"nda ən təhlükəli məqam ilkin mərhələdə 5 rayonun işğaldan azad olunmasının ardınca münaqişə zonasına Rusiya sülhməramlılarının yerləşdirilməsidir. Düzdür, sülhməramlıların yerləşdirilməsi bütün danışıqlarda müzakirə mövzusu olub. Lakin kontingentin bir ölkənin hərbçilərindən ibarət olmaması da prinsipial olaraq razılaşdırılıb. Moskvanın isə razılaşmalara sözsüz əməl etmədiyini Gürcüstan və Ukrayna hadisələrində hər kəs gördü.

Bu mənada aprel toqquşmalarını təkbaşına dayandırmasının "mükafatı" olaraq Kremlin öz hərbçilərini konflikt zonasına yerləşdirməsi "tərəflərin istəyi" ilə baş verə bilər. Yeri gəlmişkən, ermənilər özləri də anlayır ki, Rusiya olmasa, onların Azərbaycan torpaqlarında qalması mümkün olmayacaq, ona görə də həm qəzəb püskürür, həm də rus əsgərinə arxayın olub aqressiyanı davam etdirirlər. Hətta bugünlərdə Ermənistandakı rus hərbçilərinin və hərbi texnikasının Xankəndində göründüyü barədə xəbərləri düşmən mətbuatı həvəslə yaydı.

***

Qeyd edək ki, son bir neçə il ərzində Qarabağa sülhməramlıların gətirilməsi danışıqlarda əsas müzakirə mövzularından olub. Erməni tərəfi ətraf 7 rayonu "Dağlıq Qarabağ əhalisinin" təhlükəsizliyinin təminatı" olaraq işğal etdiyini hələ illər öncə açıq şəkildə etiraf edirdi, üstəlik, bu ərazilərin Azərbaycana məxsusluğunu da ara-sıra dilə gətirirdi. Məhz o zaman ermənilərin bəhanəsini kəsmək üçün sülhməramlı ideyası ortaya atıldı. Lakin hələ o zaman da rəsmi Bakı bildirirdi ki, sülhməramlıların tərkibi və digər məsələlər sülh planı üzərində iş başlayanda müəyyənləşdiriləcək. Yəni bu prosesdə hansı ölkələrin iştirak edəcəyi, münaqişə zonasına yerləşdiriləcək qüvvələrin sülhməramlı olacağı, yoxsa sülhü qoruyan inspektorlardan ibarət olacaqları konkretləşdirilməmişdi. Eyni zamanda illər uzunu sülhməramlıların harada, Dağlıq Qarabağın daxilində, yoxsa ətrafında yerləşdirilməsi də danışıqlarda konkretləşdirilməyib.

Bu gün masaya çıxarılan "Kazan planı" ilə bağlı da detallı bilgi verilmədiyindən bütün bu suallara aydınlıq gətirilməyib. Lakin müşahidələr onu göstərir ki, Rusiya bu prosesdə təkbaşına hərəkət etmək niyyətindədir. Hətta uzaqgedən iddialar da var ki, Moskva Suriyadakı hərbi qüvvələrini tam çıxartmamaqla Qərbdən Qarabağda təkbaşına hərəkət etməsi üçün mandat almaq, onun ardınca Bəşər Əsəd rejimi ilə "haqq-hesab çürütməyi" ABŞ və müttəfiqlərinin ixtiyarına buraxmaq niyyətindədir.

Lakin Kremlin Cənubi Qafqazla bağlı istəklərinə bölgədə strateji maraqları olan Qərb dairələrinin müsbət yanaşacağını demək çətindir. Eyni zamanda Qərbin sükutu da suallar doğurur. Qarabağdakı aprel savaşından sonra ABŞ daxil, aparıcı dünya ölkələrinin adekvat reaksiyası müşahidə olunmur və prosesdə dominantlıq edən Moskvaya kart-blanş verilməsi ehtimalı getdikcə güclənir. Düzdür, ATƏT-in sədri olan Almaniyanın da 7 bəndlik Qarabağ təklifləri hazırladığı barədə xəbərlər var. Elə iki gün əvvəl Minsk Qrupu həmsədrlərinin ATƏT sədri ilə görüşüb vəziyyəti birgə müzakirə etməsi ortaq sənədin masaya çıxarıla biləcəyi gümanlarını da yaradıb. Ancaq bütün bunlar, sadəcə, gümanlardır və hətta BMT baş katibi Pan Gi Munun Cənubi Qafqaza nəzərdə tutulan səfərinin təxirə salınması kimi məsələlər də regionda Moskvanın əl-qolunu açmağa imkan verir. Bu mənada Rusiyanın baş diplomatının İrəvan səfərindən hansı nəticələrlə dönəcəyi suallar doğurur.

***

Belə görünür ki, artıq sülhməramlılarla bağlı situasiya yetişib. Əksər təhlilçilər hesab edir ki, Rusiya əsasən buna çalışır, yoxsa nə Qarabağı qaytarmaq istəyir, nə də Dağlıq Qarabağı ermənidən almaq niyyətindədir. Bakı sülhməramlıların yerləşdirilməsinin əvəzində Rusiyadan nə istəyir? Azərbaycan bu plana razılıq verməsə, nə baş verə bilər? Rusiya burada möhkəmlənməklə nəyə nail olmaq istəyir?

**Politoloq Toğrul İsmayıl "Yeni Müsavat"a bildirdi ki, sülhməramlıların Qarabağda yerləşdirilməsi məsələsi əslində yeni məsələ deyil:** "Rusiya xeyli vaxtdır ki, münaqişə zonasına əsgəri gücünün yerləşdirilməsini istəyir. Bu, nə qədər mümkündür, təbii ki, demək çətindir. Amma bunu da bilirik ki, əsas məsələ Azərbaycan dövlətinin razılığından asılıdır. Dolayısı ilə danışıqların nəticəsi belə olur: Azərbaycana 5 rayon qaytarılır, bunun əvəzində Dağlıq Qarabağa sülhməramlı rus kontingenti yerləşdirilir".

**T.İsmayıl bu planın ölkəmiz üçün "tələ" olması fikri ilə tam razıdır:** "Əslində başqa dövlətin hərbi hissələrinin Azərbaycan ərazilərində yerləşdirilməsi o ərazilərdə Azərbaycan hakimiyyətinin itirilməsi deməkdir. Bunun da nəticəsini qonşu ölkələrdə görmüşük. Rusiya sülhməramlılarının Cənubi Osetiya və Abxaziyada yerləşməsi əslində faktiki olaraq uzun müddətdən sonra bu bölgələrin Gürcüstanın nəzarətindən çıxmasına gətirib çıxartdı. Nəticə etibarilə Gürcüstan bu istiqamətdə ərazi bütövlüyünü bərpa etmək istədiyi zaman böyük bir müharibə ilə üzləşdi və sonda Rusiya təktərəfli olaraq qondarma qurumları "müstəqil dövlət" olaraq tanıdı. Bu nümunə Azərbaycan üçün yetərlidir. Azərbaycan ərazisində bir başqa dövlətin, xüsusilə də Rusiyanın hərbi qüvvələrinin yerləşdirilməsi bu bölgənin onun nəzarətindən birdəfəlik çıxması, sonrakı dönəmlərdə isə buranın Rusiyanın nəzarətinə keçməsi demək olar". **Ekspertə görə, Rusiyanın əsas məqsədi Cənubi Qafqazda öz mövcudluğunu qorumaqdır:** "Ermənistanda onun hərbi bazaları var, Ermənistana nəzarətini saxlayır. Azərbaycan ərazisində də hərbi qüvvələrin yerləşdirilməsi ən böyük təhlükələrdən biridir".

**Lavrovun "əli dolu" vəziyyətdə yalnız İrəvana getməsi də diqqət çəkir. Rus diplomatın Azərbaycana da səfər edəcəyi xəbəri sonradan təsdiqlənmədi. Onun Bakıya gəlməməsi o deməkdirmi ki, artıq Bakı masa üzərindəki sənədə razılığını verib? Hələ ki rəsmi Bakının məsələyə münasibəti yoxdur. T.İsmayıl isə bunu real saymır:** "Bu aralar Rusiya ilə Ermənistan arasında vəziyyət bir az gergindir. Lavrovun İrəvan səfəri aradakı bu soyuqluğu ortadan qaldırmaq üçündür. Mən zənn etmirəm ki, Bakı belə asanlıqla sülhməramlıların bölgədə yerləşdirilməsinə izn verə bilər. Bu, mümkünsüzdür. Azərbaycan hökumətinin belə addım atması əslində bir növ intihara bərabər olardı. Amma İrəvandakı görüşmələr çox vacibdir. Rusiya Qarabağdakı son döyüşlərdən sonra rəsmi İrəvanla münasibətlərini nizamlamaq istəyir".

***

"Burada mən politoloqların sevimli sözlərini deməyə bilmərəm. Axı mən bunu əvvəldən demişdim ki, ruslar bura qoşun yeridib Azərbaycanı asılı vəziyyətə gətirmək istəyir. Onu da demişdim ki, Gürcüstandakı *(Abxaziya və Canubi Osetiya-red.)* vəziyyətə baxın, orada Moskvanın sülhməramlı qüvvələri nə etdi. Rusiya ilk növbədə Azərbaycana nəzarətini bərpa eləmək istəyir, bunu özünün sülhməramlı qüvvələri vasitəsilə etmək niyyətindədir. Torpağımızda sülhməramlı qüvvələrin yerləşdirilməsi müqabilində o, Ermənistandan 5 rayonun qaytarılmasını tələb edır". Bu fikirlərsə politoloq Hikmət Hacızadəyə məxsusdur.

**Ancaq Rusiya imperiyasının şərtlərinə razılaşmamağın da riskli olduğu barədə fikirlər var. Hesab olunur ki, Kreml hətta öz müttəfiqi və forpostunu onun cızdığı xətdən kənara çıxdığı üçün cəzalandırıb Azərbaycanla üzbəüz döyüş meydanında qoydusa, Bakı üçün də hansısa sürprizlər hazırlaya bilər. H.Hacızadə isə sonucu belə təsəvvür edir:** "Əgər Azərbaycan rusların sülhməramlı qüvvələr və Rusiyanın yaratdığı yeni ittifaqlarla bağlı tələbləri ilə razılaşmasa, onda 5 rayon da qayıtmayaq. Rusun razılığı olmasa, biz özümüz təkbaşına hələ ki o rayonları qaytara bilməyəcəyik. Çünki o zaman Rusiya İrəvanı aktiv şəkildə dəstəkləyəcək". Ekspert hələ ki masa üzərindəki heç bir sənədin razılaşdırılılmadığı qənaətindədir: "Yəqin Lavrov çalışır əvvəl İrəvanı yola gətirsin. Sonra isə Bakının qarşısında məsələ qaldıracaq ki, 5 rayonu sənə qaytaracağam, amma sən də mən istədiyini elə!"

***

Təbii ki, qarşıda çox gərgin bir dövr var. Qarabağ toqquşmalarından sonra artıq status-kvonun saxlanmasının mümkünsüzlüyünü dərk edən qüvvələr nəyin bahasına olursa-olsun bölgədə sülhü təmin etməyə çalışır, hətta Qarabağın Azərbaycandan qoparılması bahasına olsa da. Bu mənada əminliklə demək olar ki, artıq Qarabağla bağlı həll prosesi təhlükəli məcraya daxil olub.

Qəribəsi odur ki, özgə torpağını ilhaq etmiş Ermənistan daha çox qışqır-bağır salmaqdadır. Lakin hərbi uğurlardan sonra təmkinini qoruyub-saxlamağa çalışan Bakı da Azərbaycan şəhidlərinin qanı bahasına əldə olunmuş mövqelərin birdəfəlik itirilməsinə - özü də xalqın savaş çağırışlarının səsləndiyi bir dönəmdə - çətin ki, razılaşsın. Üstəlik, Azərbaycan bu prosesdə tək deyil, onun yaxın müttəfiqi Türkiyə heç zaman imkan verməz ki, Qarabağda rus əsgəri əbədi söz sahibi olsun. Gözləyək, görək İrəvan səfəri zamanı Lavrovun "dolu" çantasından nələr çıxacaq.

❑ **Elşad PAŞASOY**




# Neft boslarının görüşü ilə bağlı yeni iddialar

## Ekspertlər bildirirlər ki, Doha görüşündə razılıq əldə edilməməsi neft ölkələrinə yeni bir mesajdır

**Bir neçə gün əvvəl neft ölkələrinin Doha görüşündə razılığın əldə olunmaması neftin qiymətlərində gözlənilən artımın olmayacağı barədə narahatlıqlara yol açdı. Bundan sonra neftin qiymətlərində qalxıb-enmələr müşahidə olunmaqdadır. Ekspertlərin fikrincə, bazar çaşqınlığa öyrəşməkdədir və yaxın gələcəkdə qiymətlərin kəskin artımı olmayacaq. Elə Doha görüşündə də məqsəd qiymət artımına nail olmaq idi. Ekspertlər gərgin keçən Doha görüşündə razılıq olardısa, neftin qiymətlərində hansı dəyişikliyin olacağı ilə bağlı musavat.com-un suallarını cavablandırıblar.**

**Ekspert Vüqar Bayramovun** sözlərinə görə, Doha görüşündə razılığın əldə edilməsi birmənalı şəkildə qiymət artımının baş verəcəyi anlamına gəlmirdi: “Bu, baş verməyəcəkdi. Amma razılığın əldə edilməsi bazara mesaj verilməsi baxımından vacib idi. Çünki birmənalı şəkildə qiymətlərin stabilləşməsinə xidmət edəcəkdi, bazarda tarazlığın yaranmasına, tələb-təklifin formalaşmasına imkan yaradacaqdı. Eyni zamanda artıq qiymətlərdə potensial azalmaların qarşısını alacaqdı. Bu, bazara hasilatın artmayacağı ilə bağlı mesajın verilməsi idi və neft bazarı üçün kifayət qədər ciddi mesaj olacaqdı. Amma bu olmadı və bazara mesaj verilmədi. Doha görüşündə hasilatın azaldılması deyil, hasilatın 2016-cı ilin yanvar səviyyəsində dondurulması müzakirə olunurdu. Bu, oktyabr ayınadək dondurmanın həyata keçirilməsini nəzərdə tuturdu. Faktiki olaraq heç də bazardakı neftin həcminin azalması deyil, təklifin artmayacağı anlamına gəlirdi. Təklifin artmaması indiki halda kifayət qədər ciddi bir siqnal olardı. Qiymətlərin stabilləşməsi və 2017-ci ildə ilin sonuna doğru daha stabil qiymətlərin olmasına, növbəti ildən başlayaraq qiymətlərdə artımın yaranmasına gətirib çıxara bilərdi. Amma razılaşma əldə edilmədiyi üçün sözsüz, bunlar baş vermədi. ”Doha görüşündə razılaşma əldə olunsaydı, qiymətlər kəskin artardı" yanaşması da doğru deyil. Öncədən də həm beynəlxalq proqnozlar onu göstərirdi ki, Doha görüşündəki razılaşma neftin dünya bazarındakı qiymətlərində kəskin artımların yaranması anlamına gətirməyəcək. Amma bu, yalnız qiymətin stabilləşməsi baxımından vacib idi. O zaman artıq qiymətin 45-50 dollar intervalında stabilləşməsinə və bərqərar olmasına şərait yaranacaqdı. Çünki neft ölkələri üçün vacib məqam qiymətin stabilləşməsidir. Birinci mərhələdə neftin stabilləşməsinə nail olunmalıdır ki, növbəti mərhələdə qiymət artımları müşahidə oluna bilsin. Qiymətin stabilləşməsi müşahidə olunmayınca, hiss edilən qiymət artımları baş verməyəcək. Təbii ki, reallıqdır və neft ölkələri də bunu qəbul edirlər. Qiymətin stabilləşməsi üçün də OPEK üzvü olmayan ölkələrin real addımlar atmasına ehtiyac var. Amma reallıq ondan ibarətdir ki, bu addımlar atılmır. Bu baxımdan Doha görüşündə razılıq əldə edilməməsi neft ölkələrinə yeni bir mesajdır. Yenidən neft bumunun yaranacağı ilə bağlı proqnozlar əslində fantaziyadan başqa bir şey deyil".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, əslində Doha görüşünün əsas məqsədi neft qiymətini 45 dollar koridoruna daşımaq idi. Hamı da başa düşürdü ki, 50 dollardan artıq neft qiymətlərinin olması indiki dövrdə mümkünsüzdür:** "Sadəcə, 45 dollarlıq koridora daşımaq mümkün ola bilərdi. Amma bu, baş vermədisə, bazar yenidən 40-45 koridoruna qayıdır. Düşünürəm ki, daha da aşağı düşməsi tendensiyası ola bilər. Çünki OPEK razılaşması olmayacağı bilinən kimi dünya gündəminə yeni bir mövzu atıldı. Küveytdə neft hasilatçıları, neft fəhlələri tətil etdilər. Əslində bu, gülməli bir işdir, amma bazarlar buna reaksiya verdi. Küveytdə nə həmkarlar var, nə fəhlələrin tətil etmək hüququ var. Çox qapalı ölkədir, fəhlələr çox ciddi cəzalarla qarşı-qarşıya qala bilər. Ona görə Küveyt hökuməti bunu özü bilərəkdən gündəmə gətirdi ki, qiymətlərin kəskin enməsinin qarşısını alsın. Artıq tətil bitib. Növbəti koridor 40-45 koridoru olacaq. Bir müddət sonra qiymətlər yenidən 35-39 koridoruna qayıda bilər".

❑ Röya RƏFİYEVA

# Azərbaycan niyə heç bir hərbi ittifaqda təmsil olunmur?

## Sülhəddin Əkbər: “Hər an müharibə ilə üz-üzə dayanan bir ölkənin heç bir hərbi ittifaqda yer almaması, əksinə, Bloklara Qoşulmama Hərəkatında olması ziyanlıdır”

**Brüsseldə NATO-Azərbaycan müzakirələri başlayıb. Aprelin 19-da NATO-nun Mənzil-Qərargahında Azərbaycanla hərbi alyans nümayəndələri arasında keçirilən görüş “Planlaşdırma və Analiz Prosesi” sənədi çərçivəsində tərəfdaşlıq məqsədlərinin müzakirəsi üzrə NATO-nun Şimali Atlantika Şurasının “28+1" formatında baş tutub.**

Bu haqda Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat verib. Məlumata görə, görüşdə Azərbaycanın Müdafiə və Xarici İşlər nazirlikləri, Dövlət Sərhəd Xidməti, NATO yanında daimi nümayəndəliyi təmsilçiləri iştirak edib. Görüşdə regiondakı təhlükəsizlik məsələləri, müdafiə sahəsində aparılan islahatlar, NATO ilə hərbi uzlaşmanın genişləndirilməsinin perspektivləri müzakirə edilib.

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər hesab edir ki, hansı sahədə olursa-olsun, NATO ilə hərbi və siyasi baxımdan əlaqələrin inkişafı müsbət qiymətləndirilməlidir. Ekspertin fikrincə, ölkəmizin bu qurumla yaxınlaşması müdafiə və hərbi sahədə NATO standartlarına yaxınlaşması deməkdir:** “NATO və Azərbaycan Silahlı Qüvvələrinin standartları yaxınlaşdıqca, gələcəkdə birgə təlimlərin, hərbi əməliyyatların keçirilməsi də mümkün olur. Eyni zamanda bu, Azərbaycanın müasir döyüş qabiliyyətinə, strategiya və taktikasına yiyələnməsinə gətirib çıxaracaq. Ölkəmizin hərbi budcəsinin planlaşdırılmasından tutmuş, strateji planlaşdırılmasına qədər zabitlərimizin müasir hərbi elmi öyrənməsi ilə nəticələnəcək. Bu mənada istənilən sahədə NATO-Azərbaycan əlaqələrinin inkişafı müsbət qiymətləndirilməlidir”.

**Sülhəddin Əkbərin sözlərinə görə, Qarabağ problemi kimi ciddi problemi olan və hər an müharibə ilə üz-üzə dayanan bir ölkənin heç bir hərbi ittifaqda yer almaması, əksinə, Qoşulmama Hərəkatında olması ziyanlıdır. Bu durum gələcəkdə ölkə üçün arzuolunmaz vəziyyət yarada bilər:** “Hətta ibtidai icma quruluşunda da tayfalar arasında mübarizə gedəndə onlar öz müdafiələrini gücləndirmək üçün özlərinə müttəfiqlər axtarırdılar, başqa tayfalara, tayfa birliklərinə müraciət edirdilər, onlarla ittifaq qururdular. Təcavüzə məruz qalan, ərazisinin bir hissəsi işğal olunan Azərbaycanın bu gün Qoşulmama Hərəkatında olması, heç bir hərbi ittifaqda təmsil olunmaması zərərlidir. Qarabağ məsələsində bu vəziyyət bizim ziyanımıza işləyən bilən durumdur. Azərbaycanın Qoşulmayanlar Hərəkatında qalması və heç bir hərbi ittifaqda olmaması Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasına da uyğun deyil. Azərbaycan demokratik respublika olduğunu elan edib və 2007-ci ildə qəbul elədiyi öz Milli Təhlükəsizlik Konsepsiyasında Avroatlantik məkana inteqrasiyanı başlıca strateji hədəfi seçib. Amma bu günə kimi Azərbaycan heç bir



hərbi ittifaqda təmsil olunmur. Azərbaycan nə Gürcüstan kimi NATO-ya xeyli dərəcədə yaxınlaşmış durumda deyil, nə hər hansı KTMT-yə üzvdür, nə də iki və ya çoxtərəfli başqa hərbi ittifaq müqavilələri yoxdur. Təbii, müttəfiqimiz olan qardaş Türkiyə ilə belə, hərbi ittifaq müqavilələmiz yoxdur. Bu, Azərbaycanın milli maraqlarına uyğun gəlməyən bir vəziyyətdir. Qarabağ problemi kimi ciddi bir problemi olan və müharibə şəraitində olan bir ölkənin Qoşulmama Hərəkatında olması, heç bir hərbi ittifaqda olmaması məntiqə uyğun deyil”.

**S.Əkbər bildirdi ki, bunu guya Rusiya faktoru ilə izah edirlər, lakin Gürcüstan nümunəsinə nəzər salınanda bu izahatın əsaslı olmadığı ortaya çıxır:** “Deyirlər ki, Azərbaycan hansısa hərbi ittifaqa qoşulsa, Rusiya tərəfindən təzyiqlərə məruz qala bilər. Mən isə Gürcüstanla Azərbaycanı müqayisə eləməyi təklif edirəm. Gürcüstanın əraziləri olan Abxaziya və Cənubi Osetiya işğal olundu, Rusiya qoşunları ancaq Abxaziyanın və Cənubi Osetiyanın inzibati sərhədlərində dayanıb. Oradan irəli getməyib. Amma Dağlıq Qarabağ regionu və ətrafındakı 7 rayon işğal olunub. Bütün dünya ölkələri Rusiyaya görə Gürcüstanın müstəqilliyini, ərazi bütövlüyünü, sərhəd toxunulmazlığını birmənalı dəstəkləyir. Gürcüstan NATO üzvü olmaq istiqamətində xeyli məsafə qət edib. Sabah Rusiya zəifləyən kimi Gürcüstan asanlıqla öz ərazi bütövlüyünü təmin edəcək. Dünya birliyi isə Gürcüstanın addımını birmənalı dəstəkləyəcək. Azərbaycanın hətta bu gün Rusiya geri çəkilsə belə, ərazilərinin bərpası istiqamətində atacağı hərbi addımlara dünya birliyi tərəfindən birmənalı dəstək olacağına tam əminlik yoxdur. Çünki Azərbaycan NATO kimi hərbi ittifaqlarla Gürcüstan qədər sıx əməkdaşlıq qurmayıb, əksinə, gedib Qoşulmama Hərəkatına üzv olub. Gürcüstanın daha bir üstün tərəfi ondan ibarətdir ki, 2004-cü ildən Gürcüstan demokratik inkişaf yolunu tutub. Gürcüstan həm daxili demokratikləşməsi, həm də NATO və Avropa Birliyi ilə münasibətləri baxımından xeyli irəli gedib. Azərbaycan buna nail olsa, Qarabağ məsələsində mövqelərini daha gücləndirər və dünyadan birmənalı dəstək əldə edər”.

Qeyd edək ki, Azərbaycan Qoşulmama Hərəkatına 2011-ci ildə üzv olub. Həmin dövrdə bir çox ekspertlər bildirirdilər ki, Azərbaycanın Qoşulmama Hərəkatına üzv olması Rusiya üçün bir mesajdır. Azərbaycanın belə bir addımı yaxın vaxtlarda planlarda NATO-ya üzvlüklə bağlı hansısa bir hərəkət etməyəcəyi barədə mesaj verirdi.

Hakimiyyətə yaxın şəxslər isə bəyan edirdilər ki, bu, Azərbaycanın NATO ilə, Türkiyə ilə hərbi sahədə tərəfdaşlıqdan imtina edəcəyi demək deyil, Qoşulmama Hərəkatına üzv olması Azərbaycanın hər hansı beynəlxalq təşkilatla münasibətləri genişləndirməyinə mane olmayacaq. Məsələn, istənilən vaxt Azərbaycan Qoşulmama Hərəkatından çıxaraq, NATO-ya üzv olmaq istiqamətində addımlar ata bilər.

Xatırladaq ki, Bloklara Qoşulmama Hərəkatı dünyanın 118 dövlətini hərbi bloklarda iştirak etməmək prinsipləri əsasında birləşdirən beynəlxalq təşkilatdır. Qoşulmama Hərəkatı rəsmən 25 dövlət tərəfindən 1961-ci ilin sentyabrında Belqrad konfransında yaradılıb. Təşkilata Asiya, Afrika və Latın Amerikası ölkələri, eləcə də 15 müşahidəçi ölkə daxildir. Bu hərəkata üzv olan iki ölkə - Belarus və Özbəkistan hərbi ittifaq olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür, 14 ölkə isə müxtəlif səviyyədə NATO ilə əməkdaşlıq edir.

Digər tərəfdən, təşkilatın yaradılarkən qarşısına qoyduğu məsələlər indi aktual deyil.

❑ E.SEYİDAĞA

# Ermənilərin hərbi yük maşını özlərinin basdırdığı minaya düşüb

**Qoşunların təmas xəttində əldə olunan atəşkəs rejiminin guya Azərbaycan tərəfindən Talış kəndi istiqamətində pozulması və nəticədə Marat Danielyan adlı bir erməni hərbçisinin güllə yarası alaraq ölməsi barədə Ermənistanın kütləvi informasiya vasitələrində yayılan xəbər tamamilə yalandır. Bu barədə musavat.com-un sorğusuna cavab olaraq, Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib.**

Məlumatda deyilir ki, dünən səhər saatlarında cəbhənin şimal istiqamətində hərəkət edən erməni tərəfinə məxsus Zil-131 markalı hərbi yük avtomobili özlərinin basdırdığı minaya düşüb. Partlayış nəticəsində bir erməni hərbçisi ölüb və xeyli sayda yaralanan var.

Hadisəni Azərbaycan tərəfinin üzərinə yıxmağa cəhd göstərən Ermənistan tərəfi yaralılar haqqında da məlumatı cidd-cəhdlə öz xalqından gizlətməklə bu kimi dezinformasiyalar yayaraq hərbi rəhbərliyin uğursuzluğunu ört-basır etməyə çalışır.

**Zaman-zaman İslam dininin daşıdığı humanist ideyalar və əxlaqi dəyərlər başqa dinə mənsub məşhurların diqqətini cəlb edib. Buna görə də onların bir çoxu öz dinini dəyişərək, İslama gəlib.**



# Niyə müsəlman olmaq istəyirsən?

## Kənan Rövşənoğlu: "Heç bir din insanlara Tanrını bu qədər mükəmməl şəkildə tanıda bilmir"

Bugünlərdə Hollivudun öz qalmaqalları, tez-tez içkili halda görünməsi və səs-küylü hadisələri ilə yadda qalan aktrisası Lindsi Lohan da İslam dinini qəbul edəcəyini bildirib. Yaxın keçmişdə isə İslam dini qəbul edib müsəlman olan, adını belə dəyişdirən məşhurlar var. Onlardan bir neçəsini xatırlatmaq istərdik: Kassius Marsellus Kley dünya boks tarixinin ən məşhur nümayəndələrindən sayılır. Onu anadan olduğu Kassius Kley kimi yox, İslamı qəbul etdikdən sonra özünə götürdüyü Məhəmməd Əli adı ilə tanıyırlar. 1964-cü ildə 22 yaşlı Kassius Kley dünya çempionu adını qazanıb. Bir həftə sonra isə İslama tapınaraq, Məhəmməd Əli adını qəbul edib. Bundan əlavə, Məhəmməd Əli Amerika qaradərililərinin yaratdığı "İslam milləti" təşkilatının ən sadiq üzvlərindən olub. Məhz həmin təşkilatın sədri Malkolm İks onun müsəlman olmasına və əcdadlarına ağdərili quldarlar tərəfindən verilən soyadından imtina edib Məhəmməd Əli adını qəbul etməsinə səbəbkar olur.

Fransa millisinin və "Bavariya" futbol klubunun yarımmüdafiəçisi Frank Riberi də xristianlıqdan İslama gələnlər arasındadır. Fransa millisinin və "Bayern" (Münhen) klubunun futbolçusu, 2012/2013-cü ilin Avropanın ən yaxşı futbolçusu seçilib. Frank müsəlmanlığı əlcəzairli həyat yoldaşı Vahibənin təşəbbüsü ilə 2005-ci ildə qəbul edib və adını dəyişdirərək, Bilal qoyub.

Almaniyanın "Nürnberg" komandasının yarımmüdafiəçisi Danni Blum da İslamı qəbul edib. Alman mətbuatı futbolçunun 5 vaxt namaz qıldığını, tez-tez məscidə gedərək ibadət etdiyini, spirtli içkilərdən uzaq durduğunu və halal qidaları seçdiyini bildirib.



Kənan Rövşənoğlu

Həmçinin, pop musiqisi ulduzu Maykl Cekson müsəlmanlığı qəbul etmiş və "İslam ümməti" Afrika-Amerika təşkilatının üzvü olmuşdur.

Bu siyahını artırmaq da olar. Maraqlısı isə odur ki, İŞİD-in törətdiyi terrorlara görə xristian ölkələrində islamfobiyası yaşandığı halda İslam dini cəzbediciliyini saxlayır. Bəs səbəb? Niyə dinini dəyişmək istəyənlər sırf İslam dinini qəbul edib müsəlman olmaq istəyir?

**Dini ekspert Kənan Rövşənoğlu bildirdi ki, heç bir din insanlara Tanrını bu qədər mükəmməl şəkildə tanıda bilmir:** "Əvvəlcə ondan başlayaq ki, hər kəs anlayır ki, İŞİD bir İslam hadisəsi deyil, dövrün və şərtlərin doğurduğu radikalizm və savaşda ortaya çıxmış bir hadisədir. İslam, sadəcə, coğrafi və siyasi şərtlərə görə o qruplaşma üçün bir legitmilik vasitəsidir. Yəni ötən əsrdə savaşan radikallar üçün ideologiya sosializm idi, insanları cəlb edirdi. İndi isə hadisələr Yaxın Şərqdə cərəyan edir və təbii ki, insanları cəlb etmək üçün Yaxın Şərqdə İslam şüarından istifadə edəcəklərdi və etdilər də. Bunu ağlı başında olan hər kəs anlayır. Ona qalsa, tarix boyu bütün savaşlarda din və ideologiyalardan İŞİD-in etdiklərindən 10 qat artıq qəddarlıqlar etməklə istifadə ediblər".

**İslam dininin bu qədər cəlbedici olması səbəbinə gəlincə isə K.Rövşənoğlu burada möcüzəvi nə isə axtarıb tapmağın mümkünsüz olduğunu dedi:** "İnsanın yaradılış şəkli elədir ki, o nəyəsə inanmalıdır. İnsanın quruluşu onun içində bir müqəddəsə inam olmasını tələb edir. Hətta ateist sol cərəyanlar belə o boşluğu doldurmaq üçün müqəddəs şəklində şəxsiyyətlər uydururdular. Bu mənada hər kəs o inanma ehtiyacını təmin etmək üçün axtarışda olur. İslam Tanrını dərk etmək, yəni insanın içində olan Yaradıcıya inam ehtiyacını ən mükəmməl bir şəkildə təmin edəcək bir ilahiyyat inancına sahibdir. Başqa heç bir din insanlara Tanrını bu qədər mükəmməl şəkildə tanıda bilmir. O səbəbdən də Allahı tanımaq istəyənlərin axtarışlarının son dayanacağının İslam olması çox normaldır. Çünki nə xristianlıq, nə də yəhudilik İslamda olduğu qədər mükəmməl Tanrı inancına sahib deyil. O biri dinləri deməyə gərək yoxdur. Amma bütün bunlar, xüsusən də məşhur insanların dinlərini dəyişməsi daha çox maqazin xəbərləri təsiri oyadır. Allahı, yəni içindəki Yaradıcıya inam ehtiyacını təmin etmək istəyənin axtarış nəticəsində İslama gəlməsi normaldır. Amma bu işi məşhurların seçimi və ya maqazin xəbərlərinə çevirəndə müqəddəslik istər-istəməz arxa plana keçir. Çünki İslama gələnə qədər də məşhurlar son illərdə Avropada, Qərbdə dəb olan Uzaq Şərq mistik inanclarına, məsələn, yoqa və hind inanclarına da üz tutur".

❑ **Günel MANAFLI**




# "Ermənilərlə mübarizə həm səngərdə, həm də intellektual müstəvidə aparılmalıdır"

## Elxan Süleymanov: "Ordumuz düşmənə gücünü döyüş meydanında göstərdi, bu uğurları həm də siyasi anlamda möhkəmləndirmək tələb olunur"



**AVCİYA-nın aprelin 6-da start verdiyi "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması" petisiya layihəsi səsvermə üçün ayrılan bir aylıq müddətin yarısını artıq geridə qoydu. Bu müddət ərzində müxtəlif rayonlarda, qabaqcıl təhsil müəssisələrində görüşlər keçirildi, səsvermə prosesinin qaydaları başa salındı. Petisiya ilə bağlı növbəti tədbir Azərbaycan Dövlət Tibb Universitetində keçirilib.**

Dövlət himninin səsləndirilməsi və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin 1 dəqiqəlik sükutla qeyd olunması ilə başlanan tədbiri giriş sözü ilə universitetin rektoru, tibb elmləri doktoru, professor Gəray Gəraybəyli açdı. Rektor qeyd etdi ki, mötəbər təşkilatların qərar və qətnamələrinə Ermənistanın cinayətkar rəhbərliyi etinasızlıqla yanaşır. Mövcud vəziyyət isə Azərbaycan üçün yeni-yeni humanitar və ekoloji fəlakətlərə yol açır. G.Gəraybəyli bildirdi ki, Ermənistanın təcavüzünün ağır nəticələri ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında AVCİYA-nın prezidenti, millət vəkili Elxan Süleymanov böyük layihələr həyata keçirir və Ağ Evin rəsmi saytında açılmış petisiya layihəsi də bunlardan biridir.

**Millət vəkili Elxan Süleymanov bildirdi ki, ermənilərlə mübarizə həm səngərdə, döyüş meydanında, həm də intellektual müstəvidə aparılmalıdır:** "Aprel ayının əvvəllərində ordumuz düşmənə özünün gücünü döyüş meydanında göstərdi. Bu uğurları həm də siyasi anlamda möhkəmləndirmək tələb olunur. İslama qarşı qəzəb və nifrət mühitinin hökm sürdüyü AŞPA-da qətnamə qəbul etdirmək çox çətindir. Qətnamələrin qəbul etdirilməsi üçün prosedur qaydası da mürəkkəbdir. Lakin bununla belə, yanvarın sonlarında müqavimət və maneələri aşaraq, qəzalı vəziyyətdə olan Sərsəng su anbarı ilə bağlı 2085 saylı qətnaməni qəbul etdirmək mümkün oldu. Bu qətnamədə ermənilərin sudan bir növ silah kimi istifadə etmələri, Azərbaycan ərazilərini işğal altında saxlamaları, su anbarında baş verə biləcək qəza nəticəsində humanitar fəlakətə görə Ermənistanın məsuliyyəti məsələsi qabardılır".

AVCİYA prezidenti qeyd etdi ki, bu məsələlər Ağ Evin rəsmi saytında açılan petisiyada da vurğulanır. E.Süleymanov bildirdi ki, bu petisiyanın əsas məqsədi 47 ölkənin səs verdiyi qətnaməyə ABŞ prezidentinin münasibətini öyrənməkdir. Millət vəkili tələbələri səsvermə prosesində fəal olmağa çağırdı.

AVCİYA-nın əməkdaşı İradə Yaqubova səsvermə qaydaları, Ağ Evin rəsmi saytında baş verən dəyişikliklərlə bağlı tələbələrə məlumat verdi.

# Hərbdə səngər savaşı köhnəlibmi?

## Üzeyir Cəfərov: "Azərbaycan əsgəri təmassız da düşməni məhv edə bilər"

**2-5 apreldə cəbhə xəttində baş verənlər heç şübhəsiz ki, hələ uzun müddət müzakirə mövzusu olacaq. Konfliktoloq Elxan Mehdiyev "Yeni Müsavat"a açıqlamasında cəbhədə Azərbaycan ordusunun son uğurları barəsində danışarkən, bir məqama da diqqət çəkib. Ekspertin sözlərinə görə, düşmən hələ də 1990-cı illərin əvvəllərində olduğu kimi müharibəni səngərlərdə aparır.**

Lakin Azərbaycan ordusu son əməliyyatlardan da göründüyü kimi, müasir silahlarla silahlanıb və daha çox nöqtə atışlarına üstünlük verir. Bu isə dolayısı ilə səngər müharibəsinin bitdiyini göstərən haldır. Digər ekspertlər də hesab edirlər ki, bu adi nüans belə, ordumuzun son illər ərzində necə güclənməsinin göstəricisidir. Artıq ordumuz müasir silahların gücü ilə qısa zamanda erməniləri darmadağın etməyə qadirdir.



**Mövzu ilə bağlı "Yeni Müsavat" a danışan hərbi ekspert Üzeyir Cəfərov da bildirib ki, ermənilər 90-cı illərdə qala bilərlər, ancaq Azərbaycan ordusu həmin illərin ordusu deyil:** "Ermənistan ordusu aprelin əvvəllərində ordumuzun gücünü gördükdən sonra yəqin ki, öz taktika və strategiyasında dəyişiklik edəcək. Azərbaycan Silahlı Qüvvələri 20 ildən artıqdır ki, öz təlimlərində, taktikasında çox böyük yeniliklər edib. Yeni müasir silahlar alınıb ki, həmin silahlar hədəfləri dəqiq vuraraq, sıradan çıxarmaq gücünə malikdir. Alınan silahların həm müasir tələblərə cavab verməsi, həm də çeşidli olması insan faktorunu ikinci plana keçirir. Lakin bəllidir ki, prinsip etibarı ilə bütün məsələləri insanlar həll edirlər. Ancaq ermənilər indi sosial şəbəkələrdə, mediada çox böyük canfəşanlıqla birinci Qarabağ savaşında baş kəsənliklə, quldurluqla məşğul olan şəxslərə hərbi forma geyindirib, süni, cılız vətənpərvərlik şousu yaratmağa çalışırlar. Buyurub gəlsinlər. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin arsenalında olan silahlar imkan verir ki, dəqiq nöqtə atışları ilə düşməni məhv edək. Sonuncu əməliyyatlardan da göründüyü kimi, bir zərbəmiz 6 hektar ərazini məhv etdi. Təsəvvür edin ki, indi bu hektarlarda neçə erməni əsgəri məhv ediləcək".

**Ekspert bildirib ki, Azərbaycan əsgəri təmassız da düşməni necə lazımdırsa məhv edə bilər:** "Bunu ermənilər anlamalıdırlar. Son zamanlar ermənilər çox cidd-cəhdlə yeni müasir silahlar almaq istəyirlər. Bu kimi silahları alsalar da, Azərbaycanın imkanları var ki, həm onları izləsin, həm də bu silahların vaxtından əvvəl sıradan çıxarılmasını həyata keçirsin. Biz səngərləri də diqqətdə saxlayırıq. Çünki səngərin də önəmli olduğunu gözəl başa düşürük. Ancaq artilleriyanın və ya digər qurğuların istifadəsindən sonra səngərə yalnız motoatıcılar gedirlər. Bu da hərbinin qaydalarına tam uyğundur".

**Ü.Cəfərov bildirib ki, Azərbaycan təkcə silah almaqla kifayətlənmir, eyni zamanda müasir silahlardan dəqiqliklə istifadə edə bilən kadrlar yetişdirir:**

"Azərbaycan zabitləri bu gün çox böyük ustalıqla dünyanın əksər aparıcı ölkələrinin məktəblərində, poliqonlarında hazırlıq mərhələsi keçirlər. Türkiyədə, Pakistanda, Amerikada, Almaniyada, Ukraynada, Rusiyanın özündə də bizim hərbi-mülki heyətimiz lazımi şəkildə hazırlanır. Türkiyədə təlimlərdə əgər bir zamanlar bizim pilotlar türklərlə birlikdə uçurdularsa, artıq onlar çox rahat şəkildə təkbaşına istənilən tapşırığı yerinə yetirə bilirlər. Bundan da əlavə, peşəkarlarımız artıq tapşırıqları təkcə günün işıqlı saatlarında deyil, gecə vaxtlarında da rahat formada yerinə yetirmək gücünə malikdirlər. Bu da dünyanın əksər ölkələrində ən yüksək göstəricilərdən biri hesab olunur. Gecə vaxtı əksər tapşırıqları yerinə yetirmək adətən problemlərlə müşahidə olunur. Ancaq bizim bütün qoşun növləri, qeyd etdiyim kimi, rahat şəkildə gecə saatlarında da tapşırığı yerinə yetirmək üçün məşqlər aparır və bunlar çox gözəl nəticə verir".

❑ **Əli RAİS**



# Xasiyyət

Zamin HACI
zaminhaci@gmail.com

**Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradıldı. Yaxşı qərardır, ancaq burada hansı peşələr öyrədiləcəkdir? Azərbaycanda hansı iş yerləri inkişaf etmişdir, nəyə ehtiyac vardır? Qabaqkı zavodlar, fabriklər çoxdan əridilib, yerlərində daş parkları, ilbiz heykəlləri qoyulubdur. İndi ölkəmizdə əsas peşələr yaltaqlıq, yalançılıq, işverənlik, oğurluq, üzdəranlıqdır, bunları da hər hansı peşə məktəbində öyrənməyə ehtiyac yoxdur. Həyat özü öyrədir! Həyatın keçdiyi master-klassları heç nə əvəz edə bilməz.**

Ancaq "pərdələrin yellədilməsi" əməliyyatları davam etməlidir, bunu elə xəbərlərin məzmunundan hiss edirsən. Örnək üçün, xəbər lentlərində çoxdandır fərman və sərəncamların məzmunu, keyfiyyət göstəriciləri yox, kəmiyyəti önə çəkilir: "Bu gün 5 fərman, 4 sərəncam imzalanmışdır", "6 qərar verildi" və sairə. Sanki sərəncamların sayında pripiskaya ehtiyac var, dünya üzrə nə qədər çox sərəncam qayırsaq BMT şefi Pan Ki-Moon gətirib bizə medal, keçici qırmızı bayraq verəcəkdir. Yeri gəlmişkən, Pan müəllim də yapistləri yaman aldatdı, söz verdiyi kimi, aprelin sonunda Bakıdakı iclasa gəlmədi. Halbuki onun səfərindən nə qədər propaqanda üçün yararlanmaq olardı, Azərbaycanın dünyaya Günəş kimi doğmasının növbəti isbatı kimi bir neçə ay zəhmətkeşləri mikrofon qabağına düzmək mümkün idi. Ayrı vaxt BMT-ni söyənlər, Qarabağa aid bir neçə qətnamənin kağız üzərində qaldığından danışan yaltaqlar BMT şefinin səfəri üçün çoxlu çıxışlar yazmışdılar. Heyf oldu hamısı.

Hərçənd o çıxışları yenə efirə vermək olar. Ona qalsa bizdə islahatın "i" hərfini də görən olmayıb, ancaq aprelin 20-də prezidentin növbəti sərəncamı ilə İqtisadi İslahatların Təhlili Mərkəzi yaradıldı. Yollarımız Ayın səthini xatırladır, ancaq bu günlərdə "Azəravtoyol" idarəsi üçün yeni baş ofisin açılışı oldu. Pik saatlarda bir çox istiqamətlərə qapıdan sallaşıb getməli olursan, ancaq avtobus stansiyasının daha bir deposu istifadəyə verildi. Yəqin islahatların təhlil mərkəzi həm də bu cür işlərin "analizləriylə" məşğul olacaqdır. Yazıçılardan vətənpərvərlik, məmurlardan gödənpərvərlik, manıslardan bədənpərvərlik, jurnalistlərdən hətərənpətərənlik tələb edilən məmləkətdə nə desən olar.

Avtobus demişkən, Bakıda bir tragikomik əhvalat olmuşdur. İki məktəblinin itməsi haqda xəbər yayılıb, Təhsil Nazirliyi isə bunu təkzib edib, deyir, uşaqlar sadəcə azıblar: "Onların həmişə evə getdiyi marşrutun istiqaməti dəyişdirilib, şagirdlər başqa avtobusla evə getməyə cəhd ediblər, bu zaman azıblar". Şükür, belə anladım uşaqlar tapılıb, ailələrinə qovuşubdur. Xoşbəxt olsunlar, məktəbi bitirib universitetə girsinlər, yaxşı vətənpərvər yaltaq olsunlar, ilahi, amin!

Ancaq nazirliyin açıqlaması həm də Bakının nəqliyyat sektorundakı xaosu, ümumən paytaxtın tarixinə münasibətdəki hərc-mərcliyi göstərir. Yapistlər paytaxtda elə bir marşrut, elə bir tarixi yer, mədəni-sosial istiqamət qoymayıblar ki, əvvəlki şəklində qalsın. Hamısını dağıdıblar, tar-mar ediblər. Böyük adamlar Bakıda azırlar, şəhəri tanımırlar, gəl gör uşaqlar olsun. Özü də imkan vermirlər hər hansı bir küçə, bina, obyekt heç olmazsa beş il bir şəkildə qalsın. Özlərinin "düzəltdiklərini" də bir-iki ildən sonra sökürlər. Binalara üzlük çəkib, az sonra elə həmin binaları uçurdurlar. Məqsəd nədir, guya tikib-sökmədən dövlət büdcəsini qamarlamağa bunlara nə, kim mane olur - məlum deyil. Sanki adətkərdə olublar. Toyuğun taxıl anbarına salınarkən özünü aparması misalındakı kimi: toyuq başlayır bir anbar buğdanı da eşələyib, dağıdıb yeməyə, soruşurlar niyə belə edirsən, hamısı sənindir, qıraqdan başla, kefin istəyən qədər ye. Toyuq deyir xasiyyətim belədir.

# Yenə "Qobl variantı": Laçın əvəzinə Mehri dəhlizi

## Azərbaycan sülh danışıqlarında Mehridən Naxçıvana dəhliz ayrılması məsələsini qaldıra bilər

**Qarabağ münaqişəsi ilə bağlı indiyədək aparılan danışıqlarda - irəli sürülən həll variantlarında Laçın dəhlizinin neytral zona olaraq Dağlıq Qarabağ ermənilərinin Ermənistana gediş-gəlişi üçün ayrılması şərti qoyulur. Ermənistan bu şərtin üzərində həmişə israr edir. Azərbaycan bunun əvəzində Mehri dəhlizi məsələsini qaldırmalıdırmı?**



Naxçıvanda Dağlıq Qarabağda yaşayan ermənilərdən iki-üç dəfə çox azərbaycanlı yaşayır. Azərbaycan həmin vətəndaşlarına tarixi Azərbaycan torpağı olan Mehridən birbaşa gediş-gəliş üçün dəhliz ayrılmasını qaldıra bilərmi?

**YAP-çı deputat Bəxtiyar Sadıqov** bildirdi ki, Laçın dəhlizi məsələsi ermənilərin daim üzərində təkid etdikləri şərtdir. Onlar deyirlər ki, Dağlıq Qarabağda yaşayan ermənilərin Ermənistana sərbəst gediş-gəlişi Laçın dəhlizi vasitəsilə təmin edilməlidir. Azərbaycan da hələ 1990-cı illərdə sülh danışıqlarında Mehridən Naxçıvana dəhliz məsələsini gündəmə gətirib. Danışıqlarda vaxtilə bu məsələ olub: "Hətta o zamanlar bir "Qobl variantı"nda da Laçın dəhlizinin güzəştinin əvəzinə Mehri dəhlizinin güzəştə gedilməsi məsələsi əksini tapmışdı. Ermənilər o dövrdə və sonrakı illərdə özlərini güclü sayırdılar, ona görə də bu cür təklifləri qəbul etmirdilər. Birmənalı güzəştsiz mövqedə qalırdılar. Onlarda bir düşüncə var idi ki, Azərbaycan uzun müddət dözəcək və işğal faktı ilə barışıb Dağlıq Qarabağın müstəqilliyini tanıyacaq. Bu özündən müştəbehlik Ermənistanı nəinki Mehri məsələsində, hətta Dağlıq Qarabağın ətrafındakı işğal altındakı bircə rayonun da geri qaytarılması təklifini rədd etməyə sövq edirdi. Lakin artıq vəziyyət dəyişib, Azərbaycan ordusu aprelin əvvəlində öz gücünü göstərdi və Ermənistana yerini göstərdi. Bundan sonra Ermənistan güzəşt mövqeyinə keçməyəcəyi halda daha sarsıdıcı zərbə alacağına əmindir. Odur ki, danışıqlarda Mehridən Naxçıvana dəhliz verilməsi variantını qəbul etməyə hazır olmalıdırlar. Ermənistan bilməlidir ki, budəfəki danışıqlar əvvəlki danışıqlardan olmayacaq. Şəxsən düşünürəm ki, Mehri məsələsi kimi məsələlər də ortada olacaq və Ermənistan bununla razılaşmaq zorunda qalacaq".

**Deputat vurğuladı ki, Mehridən Naxçıvana dəhliz verilməsi məsələsi mühümdür və bu, Naxçıvan Muxtar Respublikası əhalisinin blokadadan çıxması, Azərbaycana qısa quru yolunun açılması deməkdir:** "Ona görə də inanıram ki, bundan sonrakı danışıqlar mərhələsində Mehri məsələsinə də qayıdılacaq. Azərbaycan prezidenti bu məsələlərin bütün incəliklərini bilir. Əvvəla, Mehri Azərbaycanın tarixi torpağı olub, ikincisi, əgər Dağlıq Qarabağda yaşayan və real sayı 100 mindən yuxarı olmayan erməni əhali üçün Ermənistana Laçından quru yolu-xüsusi dəhliz verilməlidirsə, deməli, Naxçıvanda yaşayan 300 mindən yuxarı azərbaycanlı əhaliyə də Mehri vasitəsilə dəhliz verilməlidir".

**Siyasi ekspert Bəxtiyar Hacıyev də bildirdi ki, Mehri dəhlizi variantı vaxtilə ABŞ rəsmilərinin vasitəçiliyi ilə təklif olunan sülh planlarının biri çərçivəsində müzakirə edilirdi. Lakin sonradan bu məsələ gündəmə çıxarılmadı:** "Təbii ki, haqlı olaraq Azərbaycan öz vətəndaşlarının, xüsusilə də əhalinin sayına görə Qarabağdakı ermənilərdən daha çox Naxçıvanda yaşayan azərbaycanlılar üçün birbaşa gediş-gəlişi təmin etməyə çalışa bilər və bunun üçüt Mehri dəhlizindən istifadəni gündəmə gətirə bilər. Azərbaycanın buna haqqı var. Ancaq məsələ burasındadır ki, münaqişə sülh yolu ilə həll edilməli, bunun üçün isə tərəflər bir-birinə güzəştlər etməlidir. Azərbaycan tərəfi işğalçıların işğal etdikləri rayonları azad etmək addımına qarşı, Dağlıq Qarabağdan Ermənistana keçidi təmin edən Laçın koridorunu ayırmağı bir güzəşt addım kimi qəbul edir. Azərbaycan öz ərazi bütövlüyünü təmin edir, Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə təminat üçün isə Laçın dəhlizini açıq saxlayır. Ermənistandan isə Naxçıvana dəhliz verilməsi tələbi irəli sürülə bilər".

❑ **Etibar SEYİDAĞA**



# BMT baş katibi dünyadakı vəziyyətə görə Bakıya gəlmədi

**BMT baş katibi Pan Ki Mun Cənubi Qafqaz regionu respublikalarına planlaşdırılan səfərini təxirə salıb. Virtualaz.org xəbər verir ki, bu barədə BMT-nin İrəvandakı ofisi bildirib. Baş katibin səfərinin təxirə salınmasının səbəbi açıqlanmır.**

Bundan əvvəl xəbər verilmişdi ki, BMT baş katibi Cənubi Qafqaz respublikalarına səfər edəcək, aprelin 25-də Ermənistanda, daha sonra Azərbaycanda olacaq.

Onun səfər zamanı Qarabağ münaqişəsi ətrafında yaranmış vəziyyəti də müzakirə edəcəyi gözlənilirdi.

# Amerika Dövlətləri Təşkilatı Qarabağa görə öz baş katibinə qarşı çıxdı

**Amerika Dövlətləri Təşkilatına (ADT) üzv olan əksər ölkələrin rəsmiləri ADT-nin baş katibi Luis Almaqronun Ermənistan-Azərbaycan təmas xəttində son toqquşmalara dair verdiyi bəyanatına kəskin etirazlarını bildiriblər.**



Luis Almaqro

Azvision.az-ın əldə etdiyi məlumata əsasən, digər beynəlxalq təşkilatların bəyanatlarından fərqli olaraq, ADT-nin Ermənistan-Azərbaycan cəbhəsində yaşanan son gərginliyin yaranmasında birtərəfli mövqe tutması üzv dövlətləri hiddətləndirib. Hətta bəzi dövlətlər baş katibə bu özfəaliyyətilə bağlı etiraz notası da göndəriblər.

Təşkilata üzv dövlətlərin mövqeyini öyrənmədən, onlarla razılaşdırmadan ADT adından bəyanatın verilməsi Luis Almaqronun fərdi fəaliyyəti kimi qiymətləndirilib və onu siyasi ambisiyaları naminə təşkilatın adından istifadə etməkdə qınayıblar.

Qeyd olunub ki, Latın Amerikası dövlətlərinin Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar mövqeyi Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi və münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həllindən ibarətdir. Dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət ADT-nin təməl prinsiplərindən biridir. Üzv dövlətlərin əksəriyyətinin hazırda mövqeyi ondan ibarətdir ki, araşdırma aparmadan birtərəfli bəyanatla çıxış edilməsi münaqişənin nizamlanma prosesinə töhfə vermir və ədalətli deyil.

Saytın araşdırması nəticəsində məlum olub ki, bu qərəzin kökü Luis Almaqronun Uruqvayın xarici işlər naziri kimi anti-Azərbaycan mövqeyinə gedib çıxır. Belə ki, o, gələcək siyasi ambisiyaları naminə ADT-dən siyasi platforma kimi istifadə etmək fikrinə düşüb.

Luis Almaqro Latın Amerikasında erməni mənşəli milyarder və Azərbaycanın işğal olunmuş ərazilərində Xocalı hava limanını tikdirən Eduard Eurnekianın təsiri altındadır. O hələ Uruqvayın xarici işlər naziri olanda Latın Amerikasındakı erməni lobbisinin təsiri ilə Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini təhrif edən bəyanatlarla çıxış etmişdi.

Qeyd edək ki, Azərbaycan tərəfdən də məsələ ilə əlaqədar dərhal ADT-nin katibliyi və üzv dövlətlərə müvafiq notalar ünvanlanmışdı.

YENİ MÜSAVAT
N 86 (6407) 22 aprel 2016

# Rusiyanın fəallaşan Qarabağ diplomatiyası arxasındakı əsas hədəf

## Güney Qafqazı itirmək qorxusu Kremli hərəkətə gətirib; Azərbaycan ABŞ və AB ilə əlaqələri intensivləşdirib; Gürcüstan isə NATO-nun bir addımlığındadır və gələn ildən peşəkar orduya keçir, çağırış sistemini ləğv edir...



**Rusiyanın aprelin əvvəlindən etibarən fəallaşan Qarabağ diplomatiyası siyasi təhlilçilərin diqqət mərkəzindədir. Onların əksəriyyəti bu qənaətdədir ki, Moskvanı Dağlıq Qarabağ münaqişəsinin həllindən çox Güney Qafqazda möhkəmlənmək, Azərbaycanla Ermənistanı daha güclü nəzarətdə saxlamaq imkanı əldə eləmək maraqlandırır.**

Bunun üçün əsaslar da sıralanır: Gürcüstan artıq NATO-ya üzvlüyün bir addımlığındadır, Azərbaycan xüsusən də son vaxtlar Avropa Birliyi və ABŞ-la işbirliyi və yaxınlaşma içindədir, Azərbaycanla Gürcüstana Türkiyə vasitəsilə Avropaya, Qərbə birləşdirən neft-qaz xətlərinin, nəqliyyat dəhlizlərinin sayı artmaqdadır *(bu il Bakı-Tiflis-Qars dəmir yolu da istifadəyə veriləcək, Cənub Qaz Dəhlizinin inşası sürətləndirilib)* və s.

Rusiyanın regiona yeganə təsir vasitəsi isə sırf hərbi amillədir. Onun öz qonşuları üçün nə cəlbedici yüksək texnologiyaları var, nə də iqtisadi göstəriciləri. Sadalanan layihələr də işə düşdükdən sonra şimal qonşumuzun bölgəyə təsir imkanları daha da daralmış olacaq, üstəlik, Avropa ölkələri və bazarlarının Rusiyadan enerji və nəqliyyat-kommunikasiya asılılığı xeyli azalaq.

Odur ki, Rusiya tələsir. Həm də o səbəbə ki, Qarabağ konfliktinin qaynar fazaya keçə biləcəyindən narahatdır. Hər necə, olmasa, Güney Qafqazda yeni böyük müharibə Rusiyaya gərək deyil - ən azı o səbəbə ki, bu müharibəyə onun özü də, Türkiyə də, hətta Gürcüstan da qoşulmalı olacaq.

***

Bu arada məlum olub ki, gələn ildən qonşu Gürcüstan orduya çağırış sistemindən imtina eləməyə hazırlaşır. Müdafiə naziri Tinatin Xidaşeli ölkənin 1-ci kanalına müsahibəsində bununla bağlı Müdafiə Nazirliyinin artıq qərar verdiyini, qərara qanunverici orqan səviyyəsində dəstək verilməsinin vacibliyini açıqlayıb. **"2017-ci ildə Gürcüstanda daha orduya məcburi çağırış olmayacaq. Müdafiə naziri kimi mənim qərarım belədir"** - nazir qeyd edib. Onun sözlərinə görə, gələn il Müdafiə Nazirliyi silahlı qüvvələrə könüllü çağırış sisteminə keçəcək. Nazir onu da bildirib ki, belə bir sistem NATO-ya üzv ölkələrin əksəriyyətində qüvvədədir və effektlidir.

Ordunun NATO sisteminə keçidi isə sözsüz ki, sadəcə, bir hərbi məsələ deyil, təbii ki, ən əvvəl dəyərlər məsələsidir, Qərbin üstünlük verdiyin sistemi qəbul etməkdir; demək, NATO-ya, Qərbə bir qədər də yaxınlaşmaq, inteqrasiya olunmaq, bu yöndə ciddi iradə nümayiş etdirməkdir. Gürcü ordusunun bu standartlara keçidində isə heç şübhəsiz, NATO-nun sanballı üzvü, qonşu Türkiyənin xidməti danılmazdır. O da faktdır ki, qərbyönlü kurs götürən rəsmi Tiflisin özü də buna illərdir can atır.

***

Mövcud reallıqlar, ilk növbədə də uzanan erməni işğalı diktə edir ki, kifayət qədər güclü silahlı qüvvələri olmasına rəğmən, Azərbaycan da tezliklə peşəkar ordu sisteminə keçsin. Buna əgər bizim kimi, ərazilərinin bir hissəsi işğal altında olan, neft-qaz ehtiyatlarından məhrum, iqtisadi cəhətdən Azərbaycandan xeyli zəif Gürcüstan bacarırsa, biz qat-qat asan reallaşdıra bilərik.

Niyə görə bizə peşəkar ordu gərəkdir? Bir səbəb deyildi - erməni işğalına daha tez son qoymaq üçün - istər hərbi yolla olsun, istərsə də dinc yolla. Çünki qüdrətli, basılmaz ordu danışıqlar masası arxasında da düşmənə güclü psixoloji təzyiq vasitəsidir, onun dilini gödək edən amildir.

**İkincisi,** mümkün hərbi əməliyyatlar, müharibə zamanı canlı itkilərimizin minimum olması, çağırışçı sıralarında lüzumsuz itkilərin aradan qalxması üçün gərəkdir.

**Üçüncü,** qardaş Türkiyənin PKK ilə mübarizədə uğurlu təcrübəsi göstərdi ki, peşəkar, yüksək hazırlıqlı ordu həm də daxili terrorla mübarizdə, ölkənin və xalqın milli təhlükəsizliyini qorumaq üçün olduqca önəmli faktordur.

***

Yeri gəlmişkən, son məlumatlara görə, 4 günlük müharibə ilə sarsıdıcı zərbə almış düşmən tərəf indi də Qarabağa dünyanın hər yerindən terrorçular toplayır. Bu barədə İsrailin Qüds şəhərində yerləşən Şərq Tərəfdaşlığı İnstitutunun prezidenti **Avraam Şmuleviç** Ermənistanın cəbhədə yaranan son gərginliklərdən dolayı vəziyyəti day.az-a şərh edərkən xəbərdarlıq edib.

**İsrailli politoloqun sözlərinə görə, Ermənistan hakimiyyəti erməni diasporunun gücündən istifadə edir.** "Diaspor şəbəkəsi isə bir neçə mənbədən, o cümlədən mütəşəkkil cinayətkar dəstələrin maliyyəsindən formalaşır. Bundan əlavə, türklərə qarşı hücum aktları törədən hərbiləşdirilmiş dəstələr də mövcuddur. Bu dəstələr öz tarixini XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiya və Osmanlı imperiyasında terror hücumları gerçəkləşdirən "Daşnaksütyun" partiyasından tutmuş, 90-cı illərdə gürcülərə qarşı Abxaziyada etnik təmizləmə aparan "Baqramyan batalyonu"na qədər götürür" - israilli ekspert qeyd edib.

**Şmuleviçin fikrincə, hazırda erməni terror qruplarının üzvləri Qarabağa toplaşıb.** "Qarabağa gələn erməni terrorçularının bir qismi "KQB"nin təlimlərini keçmiş profesional qatillərdir. Ermənistanda hələ sovet vaxtı "KQB"nin nəzarəti altında diasporla əlaqə institutları var idi. Şübhə yoxdur ki, ermənilər bu terror şəbəkəsini və müxtəlif ölkələrdə olan diasporunun gücünü Qarabağdakı döyüşlərdə istifadə edəcək".

***

Politoloqun fikirlərinə 4 günlük müharibədən dərhal sonra Qarabağda peyda olan terrorçu ASALA təşkilatının liderlərindən biri, Livan ermənisi, Paris terrorunda adı hallanan Vazgen Sislyanın söylədikləri şübhə yeri saxlamır. Bundan əlavə, az öncə erməni lobbistlərinin Avropada, Almaniyada PKK-çı kürdləri də Qarabağ üçün səfərbər elədikləri haqda məlumatlar yayılmışdı.

Əlbəttə ki, Azərbaycanın işğal altındakı torpaqlarında çağırılmamış silahlı "qonaqlar" - erməni terrorçulan və başqasənləri ordumuzun gücünü görməyincə, yaxud hiss eləməyincə oradan qaçıb dağılışmayacaqlar. Həmin terrorçu qruplaşmalar isə Rusiyanın, onun kəşfiyyat qurumlarının izni və xəbəri olmadan ərazilərimizə soxula bilməzlər.

Demək, bütün hallarda güclü və peşəkar ordu Rusiyanın məkrli planlarına qarşı da effektli kontur-sipərdir. Söz düşmüşkən, Rusiyanın özü də muzdlu ordu sisteminə keçməyə çalışır.

❑ **Analitik xidmət**

# "Xankəndini vuracağıq" hədəsinin pərdəarxası- yaxud öz şəhərimizi vurmalıyıqmı?

**Aprelin ilk günlərindəki gərgin döyüşlərdə düşmənin Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmasına, insan tələfatının baş verməsinə cavab olaraq Azərbaycanın Müdafiə Nazirliyi çox sərt bir xəbərdarlıq etmişdi. Aprelin 4-də ordumuzun rəhbərliyi qısa bir müddətdə yaşayış məntəqələrimizə düşmən tərəfindən vurulan zərbələrin dayandırılmayacağı təqdirdə Xankəndi şəhəri və işğal olunmuş digər yaşayış məntəqələrinə dağıdıcı zərbələrin endiriləcəyini bəyan etdi.**

Son əməliyyatlarla Azərbaycanın niyyətinin ciddiliyini anlayan düşmən məhz bu xəbərdarlıqda sonra müəyyən qədər özünü yığışdırdı. Növbəti günlərdə erməni tərəf Mingəçevir Su Elektrik Stansiyasına zərbə endiriləcəyi ilə təhdid edəndə yenə də Xankəndi məsələsi gündəmə gəldi. O zaman bir sıra ekspertlər, o cümlədən ciddi təhlilləri ilə diqqət çəkən politoloq Elxan Şahinoğlu Mingəçevirə zərbə endiriləcəyi halda, Xankəndinin daşının-daş üstə qalmayacağı haqda xəbərdarlıq etdi. Düşmənin təhdidlərinin qarşılığında bəlkə də bu kimi cavablar normal görünür. Ancaq hiyləgər düşmən bir sıra hallarda bu kimi təxribatçı hərəkətləri ilə Azərbaycandan aqressiv və mülki ünvanlara yönələn təhdidlər qoparmağa, bundan beynəlxalq aləmdə özünü "yazıq" göstərməklə istifadə etməyə çalışır. Düzdür, Xankəndində separatçılar məskən salıb. Ancaq bu şəhər bizə məxsusdur, onu darmadağın etmək elə öz büdcəmizə ziyan vurmaqdır. Digər tərəfdən, orada girovluqda olan dinc ermənilər də Azərbaycan vətəndaşlarıdır. Bəlkə biz daha korrekt davranaq, deyək ki, düşmənin Xankəndindəki mövqelərinə, məsələn, hərbi obyektlərə, yaxud separatçıların qərargahlarına, silah anbarlarına nöqtəli zərbələr endirə bilərik və s.



**Elxan Şahinoğlu:** "Mingəçevir SES-lə bağlı təhdidin cavabı da Xankəndində məskunlaşan separatizm ocağının dağıdılması olmalıdır"



**Üzeyir Cəfərov:** "Əgər erməni tərəfi hər hansı ağılsız hərəkət etmiş olsaydı, biz lazım olan bütün variantlardan istifadə edəcəkdik"

**Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında dedi ki, məsələyə özəl yanaşması var:** "Bəli, belə də demək olar. Ancaq Mingəçevir SES-in vurulması minlərlə insanın həlak olmasına gətirib çıxara bilər. Bunun cavabı da Xankəndində məskunlaşan separatizm ocağının dağıdılması olmalıdır".

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov hesab edir ki, Mingəçevir SES-i vuracaqları ilə təhdid əslində informasiya və mənəvi-psixoloji müharibənin elementlərindən biridir:** "Düşməni bir qədər sakitləşdirmək və yerində oturtmaq üçün isə bizim tərəf də separatçıların daha çox məskunlaşdıqları Xankəndini raket atəşinə tutacağımızı bəyan edir. Siz bu açıqlamadan sonra ermənilərin onsuz da gərgin və panik vəziyyətdə olan mənəvi-psixoloji, fiziki durumlarının üzərinə əlavə necə gərginliyin gəlməsini gözlərinizlə görsəydiniz, bəlkə də tamam başqa şeylər haqqında düşünmək lazım olardı". **Hərbi ekspert bir məqama da diqqət çəkdi:** "Məsələnin mahiyyətindən dərindən xəbərləri olan hər kəs gözəl bilir ki, biz heç bir halda öz doğma məkanımız və şəhərimiz olan Xankəndini nə vurası deyildik, nə də oralara ağır raketlərlə zərbə endirmək niyyətində olmamışdıq. Sözsüz ki, əgər erməni tərəfi hər hansı ağılsız hərəkət etmiş olsaydı, biz lazım olan bütün variantlardan istifadə edəcəkdik. Bunu bizə heç kim nə qadağan edə bilməzdi, nə də buna qarşı çıxa bilməzdi. Müdafiə Nazirliyi dəfələrlə bəyan etmişdir ki, biz düşmənin istənilən təxribatlarına daha ağır və sərt şəkildə cavab verəcəyik. Mingəçeviri özlərinə hədəf seçən erməni "ağıllıları" gərək onları hansı daha ağır, mən deyərdim faciələrin gözlədiyini də unutmasınlar. Şükürlər olsun ki, bu günə qədər Azərbaycan olaraq bizə kimsə Ermənistanla bağlı hansısa hədələyici bəyanatların və ya fikirlərin olmasını göstərə bilməz".

❑ **Cavid TURAN**

# “Yanan bina işi” məhkəmədə-həqiqət üzə çıxacaqmı?

## 11 aydan sonra da hamını bir sual düşündürür: “16 mərtəbəli binanın 10-15 dəqiqə ərzində kibrit kimi yanmasının səbəbi nədir?”

**Ötən il mayın 19-da Binəqədi rayonunda 16 mərtəbəli yaşayış binasında baş verən yanğınla bağlı başlanılan cinayət işi üzrə ibtidai istintaq başa çatıb. Hazırda təqsirləndirilən şəxslərin - “Qlobal Stone” MMC-nin baş direktoru Uğur Bəşirov, “Global Construction” MMC-nin sədr müavini Ələkbər Əsgərov, 2012-2013-cü illərdə Binəqədi Rayon Mənzil-kommunal Təsərrüfat Birliyinin rəisi işləmiş Ədalət Rəcəbov, Binəqədi rayonu, 72 saylı Mənzil-kommunal İstismar Sahəsinin rəisi Nizami Orucov və binanın poliuretan materialla üzlənməsi işlərinə nəzarət funksiyalarını həyata keçirməli olan, 2012-2013-cü illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzovun vəkilləri cinayət işinin materialları ilə tanış olurlar.**



APA-nın yaydığı məlumata görə, yaxın günlərdə cinayət işi baxılmaq üçün məhkəməyə göndəriləcək.

Xatırladaq ki, baş vermiş məşum yanğın 15 nəfərin həyatına son qoyub, 56 nəfər xəsarət alıb.

Bu gün də binadakı yanğının hansı səbəbdən meydana çıxması məlum deyil. Bilinmir ki, bina təsadüfdən yanıb, yoxsa yandırılıb. Hamını bir sual düşündürürdü - 16 mərtəbəli binanın 10-15 dəqiqə ərzində kibrit kimi yanmasının səbəbi nədir?

Hüquq-mühafizə orqanları yanğının sürətlə genişlənməsinin, yayılmasının səbəbi kimi binanın üzlüyündə istifadə edilən poliuretan adlı kimyəvi tərkibli materialın olmasını göstəriblər. Amma yenə də yanğının meydana çıxmasının səbəbini ictimaiyyətə açıqlayan olmadı. Bu gün həmin materialı binaya vuran iş icraçıları həbsdədir. İcraçılara işi sifariş edənlər isə azadlıqdadırlar. Həmin materialın hansı hesabdan, kimin sifarişi və puluna alınıb binanın üzlənməsi də bilinmir.

**Tanınmış hüquqşünas, “Hüquqi Dövlət” Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış bu məsələlərin ortaya çıxmamasının səbəbini belə izah edir:** “Tam məsuliyyətlə deyirəm ki, o binaların tez alışan örtüklə üzlənməsində, yanmasında, ayrılan vəsaitlərin mənimsənilməsində məsuliyyət daşıyan konkret vəzifəli şəxslər bəllidir. Sadəcə olaraq, onlar məsuliyyətə cəlb edilmir. Bu qədər bina üzləşdirilib, lakin ortada bir müqavilə yoxdur ki, bu pullar haradan gəlib, sifarişi kim verib? Məsuliyyət daşıyan konkret şəxslər cəmiyyətə bəllidir, lakin onlar məsuliyyətə cəlb olunmur. Amma mən hələ o vaxt demişdim ki, Binəqədidə, ondan əvvəl isə Xətai rayonundakı hər iki binanın yanmasına görə konkret şəxslərin cinayətə cəlb olunması ilə bağlı göstəriş verilməsə, onlar məsuliyyətə cəlb edilməyəcək”.

2015-ci ilin mayında 16 mərtəbəli binada baş verən dəhşətli olay 2007-ci il avqustun 28-də Bakının Naxçıvani və Murtuza Muxtarov küçələrinin kəsişməsində tikilən çoxmərtəbəli binanın çökməsindən sonra paytaxtda baş vermiş ən ağır hadisə idi. Olaydan 1 gün sonra - mayın 20-də prezident şəxsən hadisə yerinə baxış keçirmiş, oradan qayıtdıqdan dərhal sonra Dövlət Komissiyasının üzvləri ilə keçirdiyi toplantıda ciddi açıqlamalar vermişdi. Prezident yanğın hadisəsinin baş verməsində təqsirli bilinən şəxslər barədə cinayət işinin qaldırıldığını və onların ciddi şəkildə cəzalandırılacağını demişdi: **“Əgər bütün işlər düzgün qurulsaydı, bu hadisə baş verməzdi. Azərbaycan vətəndaşları bilməlidir ki, günahkar və günahkarlar kimdir? Bu hadisəyə görə kim məsuliyyət daşıyacaq? Hər kəs nəticə çıxarmalıdır, hər bir məmur öz məsuliyyətini dərk etməlidir. Bir də qeyd edirəm ki, heç kim cəzasız qalmayacaq. Günahkarlar dövlət tərəfindən cəzalandırılacaq və ədalət bərpa ediləcək”.**

Dövlət Komissiyasının ilk iclasında baş prokuror Zakir Qaralov binanın qəsdən yandırılması versiyasını istisna etməmişdi. Bu fərziyələrin istintaqda təsdiqini tapıb-tapmaması məhkəmədə bilinməlidir.

**❑ E.MƏMMƏDƏLİYEV**

# Banklar müştərilərin sirrini yayır- kütləvi narazılıq var

## **Ekspert:** “Kredit haqqında da məlumatlar bank sirrini təşkil edir, o məlumatı banklar yalnız müştərinin özünə və məhkəmə qərarı ilə ancaq dövlət orqanlarına verə bilərlər”

**Ölkə bankları borcluların sirlərini yayır. Problemli kreditlərin artması səbəbindən banklar borclulara qarşı müxtəlif təzyiq metodlarından istifadə edirlər. Bunlardan biri də borcluların işlədiyi təşkilatların rəhbərlərinə yazılan məktublardır. Redaksiyamıza müraciət edən onlarla müəllim bu problemlə bağlı narazılıqlarını bildiriblər. Onların sözlərinə görə, bank borclularının sirlərini yayır və işlədikləri məktəb rəhbərliyinə məktub göndərərək narahatlığa səbəb olurlar.**

Müəllimlər bu halın kütləvi şəkildə yayıldığını vurğulayırlar. Borcluların ciddi şəkildə narahatlıqları var. Bank onların bu sirrini yaymalıdırmı? Bu, qanunidirmi? Növbəti mərhələdə məktəb rəhbərliyi tərəfindən onların maaşları tutulub banka ödənilə bilərmi? Bu suallar ətrafında müzakirə apardığımız ekspertlərin açıqlamaları bankların xeyrinə deyil.

**Ekspert Əkrəm Həsənov musavat.com-a açıqlamasında bildirib ki, müştərinin borcu, kredit alması barədə məlumatlar bank sirridir və müştərinin icazəsi olmadan yayılması qanunsuzdur:** “Kredit haqqında da məlumatlar bank sirrini təşkil edir. O məlumatı banklar yalnız müştərinin özünə və məhkəmə qərarı ilə ancaq dövlət orqanlarına verə bilərlər. Başqa heç kəsə verə bilməzlər. Yaxud müştəri özü banka desə ki, filan məlumatı kiməsə ver, o zaman məlumat verilə bilər. Buna görə də iş yerinə məlumatın verilməsi, qohumlara, dostlara verilməsi bank sirrinin pozulmasıdır. Əlbəttə ki, bu, yolverilməzdir. Bank müştərinin tələbi ilə məhkəmə qaydasında da vurduğu mənəvi zərəri həmin müştəriyə ödəməlidir. Üstəlik, müvafiq dövlət orqanı tərəfindən də həmin banka qarşı müvafiq sanksiyalar tətbiq edilə bilər. Orqanlar dedikdə, bu, hazırda Maliyyə Bazarlarına Nəzarət Palatasıdır və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlakçıların Hüquqlarının Müdafiəsi Xidmətidir. Hansı ki, buna görə həmin bankları onlar cəzalandırmalıdır. Yəni bunu banklar niyə edir, bu, aydındır. Bu, əslində faktiki olaraq müştəriyə göstərilən təzyiqdir. O ki qaldı əmək haqqından tutmaya, yalnız məhkəmə ilə bu, həyata keçirilə bilər. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı varsa, yəni bank müştərini məhkəməyə verib, məhkəməni udub, həmin məhkəmənin qərarı qanuni qüvvəyə minibsə, maaşdan tutulma ola bilər. Bankın vətəndaşın iş yerindən maaşdan tutulmanı tələb etmək ixtiyarı yoxdur. Qüvvəyə minmiş məhkəmə qərarı olduğu halda, icra məmuru vətəndaşın maaşından, pensiyasından müəyyən məbləğ tuta bilər. Tutma da maksimum 50 faiz ola bilər. Bu zaman da vacib məqam odur ki, vətəndaşın yaşayış minimumu da toxunulmazdır. Əgər vətəndaşın gəliri onun və onun ailəsinin və yaşayış minimumunu təmin etmirsə, heç ümumiyyətlə həmin maaşdan, pensiyadan heç nə tutula bilməz”.

**Hüquqşünas Müzəffər Baxış isə musavat.com-a açıqlamasında qeyd edib ki, müştəri bankla müqavilə bağlayır və həmin müqavilənin tələblərinə görə bank da, müştəri də kredit müqaviləsinin tələblərinə əməl etməlidir:** “Əgər əməl etmirsə, Mülki Məcəllənin tələblərinə görə, bank həmin kredit üçün ipoteka, girov qoyulubsa, öhdəliklərdən istifadə üçün məhkəməyə müraciət etməlidir. Yaxud kredit müqaviləsinin müddəti bitibsə, müştəri müqaviləni icra etməkdən imtina edirsə, belə halda da məhkəməyə müraciət edilməlidir. Qanunvericilikdə bankın müəllimlər tərəfindən kredit müqaviləsinin şərtlərinə əməl etməməsinə görə həmin müəllimlərin işlədiyi iş yerinə müraciət səlahiyyəti nəzərdə tutulmayıb. Bundan əlavə, hətta belə bir müraciət olsa da, işəgötürən bu əhvalata görə işçiyə heç bir irad tuta bilməz. Onun barəsində heç bir tədbir görə bilməz. Bu, sadəcə olaraq, Azərbaycanda qeyri-qanuni təsir imkanlarından istifadə metodlarından biridir. Qanun belə halları əslində qadağan edir. Yəni mən səndən kredit götürmüşəm, müqavilənin tələblərinə əməl etməmişəmsə, sən qanunda olan səlahiyyətlərdən istifadə edib kreditin ödənilməsinin təmin edilməsi üçün qanunda nəzərdə tutulan imkanlardan istifadə etməlisən. Digər təsir imkanlarından istifadə etmək əslində həmin şəxsin hüquqlarının pozuntusudur. Belə halda müəllim özü bankın rəhbərliyi ilə bağlı məhkəməyə müraciət edə bilər. Hadisə nəticəsində ona vurulmuş mənəvi ziyana görə ondan tələbi ola bilər. Yəni bildirə bilər ki, bu yolla mənəvi sarsıntılar keçirib”.

**❑ Röya RƏFİYEVA**

## Azərbaycanda məhkum sayı ən yüksək rəqəmə çatıb-24 min...

**Ölkədə bütün cəzaçəkmə və istintaq təcridxanalarında ümumi məhkumların sayı 24 minə qədərdir və bu, Azərbaycanda indiyə qədər ən yüksək rəqəmdir.**

Modern.az-ın xəbərinə görə, bu sözləri Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində təşkil olunmuş “Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi” adlı dəyirmi masada çıxış edən deputat Çingiz Qənizadə deyib.

Üzvü olduğu Hüquq siyasəti və dövlət quruculuğu komitəsi adından bununla bağlı cəza sanksiyalarında yeniliklərin ediləcəyini bildirən Ç.Qənizadə deyib ki, bu rəqəm eyni zamanda büdcədən xərclərin artmasına da səbəb olur: “Hər bir məhkumun bir günlük xərci 10 manat civarındadır. Bu da il ərzində 80 milyon manatdan çox edir. Bizim Cinayət Məcəlləsindəki sanksiyalarda, ümumiyyətlə, bununla bağlı islahatlara ehtiyac var. Bunun da nəticəsində bu məhkumların sayı xeyli aşağı düşəcək.

Məsələn, hazırda qüvvədə olan sanksiyaya görə, narkotikdən istifadəyə görə 2-3 il müddətinə azadlıqdan məhrumetmə tətbiq edilir. Halbuki narkotik aludəçisi xəstə hesab olunur və onun daha çox dispanserlərdə müalicəyə ehtiyacı var, nəinki məhkumluq həyatı yaşamasına".

Deputatın sözlərinə görə, yaxın zamanlarda bununla bağlı qanunvericiliyə müvafiq islahatların, təkmilləşdirmələrin nəzərdə tutulması gözlənilir.

YENİ MÜSAVAT
N 86 (6407) 22 aprel 2016

# Yanardağın qiymətləri niyə cibimizi "yandırır"?

## Əməkdaşımız Bakıdan 27 kilometr məsafədəki yanan dağdan yazır

**"Siz qəzetdən, televiziyadan gəlirsiz? O zaman ödəniş etməlisiz, bilirsiz də... 100 manat"... Elə bu anons kifayət etdi ki, olduqca məsumanə, yurdumuzun gözəlliklərini tanıtmaq məqsədilə həyata keçirməyə hazırlaşdığımız layihəni "partizan dağlarına" tərəf yönəldək. Bəli, yenə də jurnalist kimliyimizi gizlədib, sizə daha bir məkanı tanıdacağıq - Yanardağı...**














### Yanardağ - izahlı 5 azn...

Girişdəki dialoqun, eləcə də bizim layihənin öz rəngini necə dəyişməsinin təfərrüatlarını aşağıda oxuyacaqsız. Amma əminəm ki, Bakıda yaşayıb, ölkə telekanallarına baxıb da, paytaxta yaxın məsafədə yerləşən Yanardağ haqqında məlumatsız olan az adam tapılar. Uşaqların təbirincə desək, daşların içindən od çıxan yer... Televiziya sözünü əbəs yerə işlətmədim, çünki pafoslu bədii verilişlərin əksəriyyətinin sevimli ünvanı bura olur. Qaş qaralan kimi kamera-ştativini götürüb bura gələn televiziyaçılar tanınan-tanınmayan şairləri də özləri ilə gətirir, Yanardağda çox romantik bir pozada çəkir, şeir oxutdurur, sonra o şeirə sentimental bir fon musiqisi verir.... Bununla da sıravi Azərbaycan tamaşaçısının bu məkanla bağlı təsəvvürü arzuolunmaz şəkildə formalaşır. Əslindəsə bu kiçik məkan özü boyda maraqlı bir tarixi ehtiva edir. Tanış olaq...

Bilməyənlər üçün... Bu məkan Abşeron rayonunun Digah qəsəbəsi ilə Məhəmmədi qəsəbəsi arasında, xəritə ilə desək, Məhəmmədi-Digah şosse yolunun sol istiqamətində yerləşir. Maşınla gələnlər əsasən Mehdiabad qəsəbəsi yaxınlığından bu məkana yol alırlar. Bir neçə il öncəyə qədər yolun qırağında Yanardağın elan lövhələri yer alırdı. "Yanardağ - 2 kilometr" yazılırdı üstündə. Bu dəfə həmin elana rast gələ bilmədik. Ümumilikdə isə Yanardağ Bakı şəhər mərkəzindən 27 km aralıdadır. Avtobusla gəlmək istəyənlər üçün də 217 saylı avtobus xidmət göstərir. Bu avtobus metronun "Koroglu" stansiyası - Məhəmmədi kəndi - Yanardağ istiqamətində hərəkət edir. Bundan başqa, Mehdiabad qəsəbəsindən də bəzi avtobuslar o istiqamətdə hərəkət edirlər.

Amma məkanın qarşısında onun Yanardağ olduğunu göstərən iri lövhələr yoxdur. Nabələd turist üçün hər hansı tanıtım olmaması səbəbindən çaşqınlıq yaranması da qaçılmazdır. Yaxşı ki, nabələd deyilik, məkanı tapırıq. Yanardağa giriş bileti böyüklər üçün 2 AZN, uşaqlar üçün 20 qəpikdir. Bələdçi xidmətindən istifadə etmək istəyənlər isə bunun üçün kassaya əlavə 5 AZN də ödəməlidir. Baxmayaraq ki, tarixi adlandırılan bu cür məkanlarda bələdçi xidməti üçün əlavə ödənişin olması anormaldır. Bu, bilet qiymətinin içində "əriməlidir".

### Üzərinə yağış yağanda daha da güclənir

Doğrudur, Yanardağ daha çox qış aylarında, soyuq fəsillərdə ziyarət olunacaq məkanlar siyahısındadır. Amma öyrənirik ki, aprel ayından etibarən gələnlərin sayında bir artım var. Xüsusən də məktəblərdən bura ekskursiyaya gələnlər üstünlük təşkil edir. Bələdçimiz sağ olsun, izahat verir. Öyrənirik ki, bu unikal dağ düz 14 əsrdir ki, yanır. 7-ci əsrdə şimşək nəticəsində yanmağa başlayıb. İndi isə nə qar, nə yağış, nə də çovğun onu söndürə bilir. Dağda alovu yaradan maddə metan qazı ilə kükürdün qarışığıdır. Sözügedən maddə istifadə üçün yararsızdır və onu yandırmaq qeyri-mümkündür. Belə qazın yanması yalnız açıq havada baş verir. Bağlı məkanda isə partlayış yaradır. Yanğının üzərinə yağış yağan zaman isə o, daha da güclənir. Adi günlərdə alovun hündürlüyü 10-15 metrə çatır. Amma yanğın ildən-ilə azalır. Dağ hər il bir neçə santimetr geri gedir. Bu da o deməkdir ki, dağın ərazisi yanaraq balacalaşır.

Yağış yağanda alovun daimi çıxdığı yerlərdən əlavə, digər yerlərdən də alov çıxır. Qış fəslində kükürd daha çox üzə çıxaraq, alovu şiddətləndirir.

Dağın yuxarı ərazisinin hündürlüyü 116 metrdir. Bura Abşeronun ən hündür zirvəsi hesab olunur və dəniz səviyyəsindən 86 metr yüksəkdədir.

### Yanardağa gəlib, qır məkanından yan keçmək olmaz

Fotolardan da gördüyünüz kimi, Yanardağın ərazisi kiçik sayılmaz. "Kitab-dəftər"ə görə Yanardağa 64,55 hektar ərazi ayrılıb. Bu əraziyə Qurd yuvası, min yaşı olan iki qəbiristanlıq və qədim məscid, Qotur su bulağı, Əli daşı, Kardaşı, Qırməki vadisi və Yanardağ daxildir.

Bu ərazi düz 2007-ci ildən, daha konkret desək, həmin ilin 2 may tarixindən etibarən dövlət tarix-mədəniyyət və təbiət qoruğu sayılır. Yanardağın əks istiqamətində yanan üç təpə olub. İndi isə həmin təpələrdəki alov sönüb. Bakının rəmzi hesab olunan üç yanar alov dili və dəniz simvolu da Yanardağın mövcudluğuna istinadən qəbul edilib.

Bələdçinin izahatı ilə yola davam... Bu qoruğun rəsmi saytında da qeyd edilib ki, orada yerləşən Qırməki vadisi yerli xalqın ləhcəsində "qır məkanı" anlamına gəlir və təxminən 10 hektar sahəni əhatə edir. Burada ta qədim zamanlardan neft laylarının yer səthinə yaxın olması səbəbi ilə öz-özünə üzə çıxan neft - qum və palçıqla qarışaraq soyuduqdan sonra qırabənzər kütlə əmələ gətirib. Yerli əhali bu təbii məhsuldan evlərinin damlarını yağışdan qorumaq üçün bacarıqla istifadə edib. Sonralar əllə qazılan ilk neft quyuları da məhz bu ərazidədir. Dərinliyi 35-40 metrə çatan bu quyuların bir neçəsi bu günümüzə qədər mühafizə olunmaqdadır. Ərazi neft kəşfiyyatı və bununla bağlı gedən geoloji proseslərlə məşğul olan insanlar üçün indi də böyük maraq kəsb etməkdədir.

### Palçığı da, bulağı da dəri xəstəliklərinin təbibidir...

"Qurd yuvası" adlanan təbii mağara "Qırməki vadisi"nin sərt daşlıq yamacında yerləşir. Ərazinin, ətraf mühitin ibtidai insanların yaşayışı üçün əlverişli olduğunu, dənizin yaxınlığını, balıq və digər ov heyvanlarının bu ərazidə geniş yayıldığını və istilik mənbəyi olan daimi alovları nəzərə alsaq, inamla deyə bilərik ki, bu ərazi qədim insan məskənlərindən biridir. Bu fikrimizin təsdiq və ya inkarı isə gələcək tədqiqatların işidir.

Öyrənirik ki, Yanardağ qoruğundakı palçıq vulkanı həm də müalicəvi xüsusiyyətləri ilə seçilir. Onun suyundan yerli əhali bu günə qədər müxtəlif dermotoloji və digər dəri xəstəliklərində uğurla istifadə edir. Vulkandan yaranan palçıq kosmetoloji vasitə kimi əvəzsizdir. "Qotur su" bulağı da onun kimi. Bu bulağın da dəri xəstəlikləri üçün faydası olduğu deyilən məlumatlar sırasındadır. Alışqanı bulağa yaxınlaşdıranda ani olaraq bulaq alovlanır. Qəsəbə sakinləri də dəri xəstəliklərinin müalicəsi məqsədilə bulaqdan istifadə edirlər.

### Qaval daşının hərəsindən bir səs çıxır

Bu da təpənin üstündəki qaval daşları. Üzərindəki kiçik daşlarla qaval çalmaq istəyənlər "qabiliyyətini" yoxlayır. Hərəsindən fərqli bir səs çıxır. Bələdçi isə deyir ki, elə bu qaval daşları sözügedən məkanda insanların qəbilə icması dövründən yaşadıqlarını sübut edir. Həmin dövrdə insanlar Qaval daşlarından həm həyəcan siqnalı vermək, həm də ov qabağı uğurlu ov etmək üçün düzənlənən xüsusi ayinlərin icrası zamanı bir zərb musiqi aləti kimi istifadə ediblər.

### Çay dəstgahı ləğv olunub, mühafizəçininsə gözü qonaqların üzərində...

Bir neçə il öncəyə qədər bu məkana gələnlər üçün çay içmək fürsəti də yaradılırdı. Yanardağın ərazisində fəaliyyət göstərən kafedən çay dəstgahı sifariş vermək olurdu. Dediyimiz kimi, ancaq və ancaq dəstgah... 10 AZN məbləğində olan dəstgaha isə mürəbbə, limon, keks, şokolad... daxil idi. Budəfəki gedişimizdə öyrəndik ki, artıq bu xidməti ləğv ediblər. Üstəgəl, kafenin stol-stulları da artıq ərazidən götürülüb. Buna səbəb isə bir neçə il öncə prezident İlham Əliyevin həmin məkana gəlib, bu nizamsızlığı görəndən sonra tutduğu irad olub.

Bu arada, Yanardağa giriş gecə saat 12-yə qədər mümkündür. Amma bələdçi xidməti saat 18.00-da yekunlaşır. Gəzinti zamanı ərazinin mühafizəçisinin gözləri də sizin üzərinizdə olur. Məlum, gecə qara, cücə qara. Baş verə biləcək neqativ halların qarşısını almaq üçün onun orda olması qaçılmazdır.

### Çəkiliş qiymətləri "yandırır"

İndi keçək yazının girişində qeyd etdiyimiz qiymət məsələsinə. Qoruğun girişindəki bildirişlərdə də qeyd edilib ki, biletlərin qiymətləri müxtəlifdir. Belə ki, yerli və xarici vətəndaşlar üçün 2 AZN, tələbələr üçün 1 AZN, məktəblilər üçün 20 qəpik.

Ekskursiya xidməti (1 qrup üçün 25 nəfərədək 5 AZN), tələbələr üçün 3 AZN, məktəblilər üçün 1 AZN.

Çəkiliş qiymətləri isə insanı sadəcə heyrətə gətirir. Necə, hansı meyarlara əsasən hesablanıb? Biz susaq, qiymətlər "danışsın":

Sənədli, elmi-populyar filmlərin çəkilişi - 150 manat

Bədii filmlərin çəkilişi - 300 manat

Verilişlərin çəkilişi - 200 manat

Kliplərin çəkilişi - 200 manat

Vertolyotdan çəkiliş -200 manat

Tədbirlərin keçirilməsi - 300 manat

Abidələrin reklam məqsədli çəkilişi - 200 manat

Fotoreklam üçün çəkilişlər - 100 manat

**Sonda... Qiymətlərə baxıb, reportajı partizan üsulları ilə həyata keçirməyimiz yəqin ki, anlaşılandır. Azərbaycan mətbuatının kasıb dönəmində iki-üç fotoya, bir neçə dəqiqəlik videomateriala hansısa qəzetin, saytın 100 AZN ödəyəcəyi qeyri-mümkündür. Üstəlik, nəzərə alanda ki, medianın işıqlandırması ilə bura gələcək turistlərin sayında artım olur, o zaman...**

**Ümid edək ki, məkanın rəhbərliyi, eləcə də tabe olduqları Mədəniyyət və Turizm Nazirliyi buna bir əncam çəkər. Əks halda, Yanardağdakı qiymətlər "yandıra" bilər. Jurnalistləri də, elə bu məkanın özünü də...**

❑ **Sevinc TELMANQIZI**

❑ **Foto Aytən ABBASLInındır**

YENİ MÜSAVAT
N 86 (6407) 22 aprel 2016

**İqtisadiyyat Nazirliyinə müraciət edən supermarket rəhbərlərinin nazirlə görüşünün ardından Vergilər Nazirliyinin həmin marketlərdə yoxlamalara başlaması cəmiyyətdə birmənalı qarşılanmadı. Bu iki hadisə arasında bağlılıq axtaranlar sahibkarların ƏDV-nin faiz dərəcəsinin azaldılması ilə bağlı Vergilər Nazirliyinə deyil, məhz İqtisadiyyat Nazirliyinə müraciət etməsinin nazir Fazil Məmmədovu qıcıqlandırdığını deyirlər. Marketlərdə yoxlamaların başladılması da məhz bu müraciətə "cavab olaraq" atılmış bir addım hesab olunur. Bəs görəsən, iki qurumu üz-üzə qoyan bu prosesin, İqtisadiyyat Nazirliyindəki müzakirələrin, Vergilər Nazirliyindəki yoxlamaların nəticələri necə olacaq?**

# Supermarket rəhbərlərinin müraciəti iki nazirliyi üz-üzə qoyub

## Ekspert: "Görünən odur ki, birbaşa İqtisadiyyat Nazirliyinə müraciət olunması Vergilər Nazirliyinin xoşuna gəlməyib və bu addıma "cavab" olaraq yoxlamalar başlayıb"


Fazil Məmmədov


Şahin Mustafayev

**İqtisadçı ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında öncə sahibkarları bu müraciəti etməyə vadar edən səbəblərdən danışdı: "Çox qəribə bir durum yaranıb. Vergilərin yüksək olması səbəbindən böyük ticarət şəbəkələrinin ziyanla işləməsi ehtimalı öncədən məlum idi. Çox maraqlı məqam odur ki, bunun səbəblərindən biri gömrüyün getdikcə daha şəffaf işləməyə başlaması ilə əlaqədardır. Çünki bundan öncə gömrükdən keçən məhsulların böyük əksəriyyəti rəsmiləşdirilmirdi və marketlərin marjalarında - gəlir səviyyələrinə müəyyən dərəcədə təsir göstərirdi. 18 faiz ƏDV-nin ödənilməsi çox zaman lazım olmurdu. Açıq desək, satılan məhsulların böyük əksəriyyəti rəsmiləşdirilmədən marketlərə daxil olurdu. İndi rəsmiləşdirmə yüksəldikcə, gömrükdən keçərkən 18 faiz ƏDV-nin ödənilməsi həyata keçirildikcə, bunun sonradan əvəzləşdirilməsi problemi yaranır. Marketlər sonradan həmin vəsaiti əvəzləşdirə bilmirlər və avtomatik olaraq 18 faiz ƏDV ödəyicisinə çevrilirlər. ƏDV-nin yüksək olması isə onların gəlirlərinə birbaşa təsir edir".

**İqtisadçının fikrincə, bunlar əvvəldən hesablanmalı idi və ən azından gömrük rüsumlarında, vergi dərəcələrində müəyyən azalmalara gedilməli idi:** "Bu, təkcə supermarketlərə aid deyil. Ümumiyyətlə, ticarət dövriyyəsinin zəifləməsi sübut edir ki, burada problemlər var. Azərbaycanın müxtəlif yerlərində, Bakıda, o cümlədən mərkəzi hissələrdə dükanların bağlanması da dolayısı ilə bunu sübut edir. İnsanların alıcılıq qabiliyyəti aşağı düşür, dükanların dövriyyəsi azalır və buna baxmayaraq, iş adamlarının vergi və gömrük rüsumlarında ödənişlər artır. Burada bir disbalans yaranıb və supermarket sahiblərinin belə bir şikayətlə çıxış etməsinə səbəb olub. Əslində onları ilk növbədə Vergilər Nazirliyi qəbul etməli, danışıqlar aparmalı idi. Vergilərin azaldılması ilə bağlı ancaq bu nazirlik çıxış edə bilərdi. Biz məsələnin detallarından xəbərsizik. Ola bilər ki, Vergilər Nazirliyinə müraciət olunub, qəbul olunmayıb. Və ya Vergilər Nazirliyinin başı üzərindən birbaşa İqtisadiyyat Nazirliyinə müraciət olunub və nazirlə görüş keçirilib. Açığı, bu detalları mən bilmirəm. Ancaq görünən odur ki, Vergilər Nazirliyinin başı üzərindən birbaşa İqtisadiyyat Nazirliyinə müraciət olunması çox güman ki, həmin nazirliyin xoşuna gəlməyib və bir növ supermarket sahiblərinin atdığı bu addıma "cavab" olaraq, bu yoxlamaları başladıb".

**Natiq Cəfərli onu da vurğuladı ki, yoxlamaların genişləndirilməsi onsuz da ağır durumda olan iqtisadi subyektləri daha çətin vəziyyətə salır:** "Azərbaycan reallığı sübut edir ki, yoxlamaların olması iqtisadi xərcləri daha da artıracaq.

Ona görə də bu vəziyyətin davam etməsi indiki ağır iqtisadi böhran şəraitində anlaşılan deyil. Əksinə, bütün hökumət qurumları iş adamları ilə bir yerdə birgə fəaliyyət planı, "yol xəritəsi" hazırlamalı idilər və buna uyğun olaraq da islahatlar aparılmalı idi. Hökumət vergi və gömrük faizlərinin aşağı salınmasından qorxmamalıdır. Vergi dərəcələrinin aşağı salınması ola bilər ki, qısa müddət ərzində büdcəyə daxilolmalarda müəyyən aktivliyə səbəb olsun. Çünki iqtisadi aktivliyin və dövriyyənin artması bir neçə aydan sonra effekt verəcək və büdcəyə daxilolmaların artması da mümkün olacaq. Ona görə də İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi bir yerdə birləşib proqram hazırlamalıdır. Biz dəfələrlə bununla bağlı müraciət etmişik. Lakin hökumətdə heç bir ortaq proqram yoxdur. Belə çıxır ki, hər nazirlik öz maraqlarına uyğun olaraq, öz sözünün daha kəçərli olmasını sübut etmək üçün hərəsi ayrı-ayrılıqda fəaliyyət göstərir. Bu da ümumi iqtisadi vəziyyətə daha ciddi mənfi təsirlər vurur".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov isə sahibkarların müraciətini haqlı sayıb:** "Vergilər Nazirliyinin supermarketlərdə yoxlamalara başlaması haqda mənim də məlumatım var. Ümumi götürəndə bu nazirliyin hüququdur. Ancaq digər tərəfdən, iqtisadiyyat naziri onları qəbul edib, mənim aldığım məlumata görə, müəyyən razılıqlar da əldə olunub. Bu məsələni biz uzun müddətdir ki, Milli Məclisdə qaldırmışıq. Əsas təklifimiz ƏDV-ni diferensial qaydada tətbiq etməkdir. Yəqin ki, hökumət bu yaxınlarda öz mövqeyini bildirəcək".

❑ **Nərgiz LİFTİYEVA**

# Yeni yaradılan iqtisadi beyin mərkəzi necə işləyəcək?

## İqtisadçı ekspertlər prezidentin fərmanını şərh etdi

**Aprelin 19-da prezident İlham Əliyevin fərmanı ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi yaradılıb. Fərmanda qeyd edilib ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi publik hüquqi şəxs də məhz aparılan iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin etmək məqsədilə yaradılıb. Qeyd edək ki, mərkəz 3 nəfər üzvdən ibarət Müşahidə Şurası tərəfindən idarə olunacaq və şura üzvləri prezident təyinatı ilə seçiləcək.**


Qubad İbadoğlu

Bəs görəsən, hazırda struktur islahatlarının həyata keçirildiyi, bir çox dövlət komitələrinin, fondların ləğv edildiyi vaxtda yeni bir qurumun yaradılmasını zəruri edən nədir? Bu mərkəzin fəaliyyəti nədən ibarət olacaq və Azərbaycan iqtisadiyyatının inkişafına hansı töhfələri verəcək?

**"Yeni Müsavat"ın suallarını cavablandıran Demokratiya və Rifah Hərəkatının rəhbəri, iqtisadçı ekspert Qubad İbadoğlu** bu mərkəzin yaradılmasını müsbət qiymətləndirdi və əsas diqqətin kadr seçiminə verilməsinin vacibliyini vurğuladı: "Mən vahid islahat konsepsiyasının yaradılması ilə bağlı belə analitik mərkəzlərin formalaşdırılmasının tərəfdarıyam. Ancaq Azərbaycanda Prezident yanında Strateji Araşdırmalar Mərkəzi də var, eyni zamanda Milli Məclisdə, İqtisadiyyat Nazirliyi nəzdində, ayrı-ayrı institutlarda belə mərkəzlər fəaliyyət göstərir. Bu mərkəz isə publik hüquq şəxs kimi yaradılıb, ancaq bilmirəm ki, hansı resurslar bazasında olacaq? Bu gün Azərbaycanda bu işlərin görülməsinin ən böyük çətinliyi kadrla bağlıdır. Çünki iqtisadi islahatlar sahəsində ciddi təhlil aparmaq və konsepsiya yazmaq, Azərbaycanın reallığını nəzərə almaqla bunu həyata keçirməyin yollarını araşdırmaq qabiliyyətinə malik olan kadrlarımız çox azdır. Bu baxımdan mərkəzin yaradılmasını müsbət qarşılayıram, amma hesab edirəm ki, onun formalaşması və işinin təşkili də yaradılması ilə müqayisədə daha çox vacibdir".

**Qubad İbadoğlu iqtisadçı ekspert olaraq, bu mərkəzin işinə dəstək verməyə hazır olduğunu bildirdi:** "Biz bu istiqamətdə onsuz da hökumətlə əməkdaşlıq edirik. Bildiyiniz kimi, Azərbaycanda əsas və təxirəsalınmaz bəndlər paketini prezidentin iqtisadi islahatlar üzrə köməkçisinə təqdim etmişdik və onlardan müəyyən cavablar da almışdıq. Bundan sonra da bizim beynimizin məhsuluna, bu məsələdə töhfə verməyimizə ehtiyac olarsa, biz onu əsirgəməyəcəyik. Biz həm də bilməliyik ki, bizim ideyalarımız reallaşır, cəmiyyətdə, iqtisadiyyatda müsbət dəyişikliklərə gətirib çıxarır. Bu bizim üçün çox önəmlidir. Çünki təkcə təkliflərlə, konsepsiyalarla iş bitmir. Onları həyata keçirmək üçün həm də ciddi şəkildə kadr islahatı aparılmalıdır. Mən bu qurumdan kompleks islahatlar gözləyirəm. İqtisadiyyatda şəffaflıq, hesabatlılıq olmalıdır, açıq hökumət olmalıdır. Bu istiqamətdə islahatların aparılmasına ehtiyac var".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov da belə bir beyin mərkəzinin olmasına ehtiyac olduğunu vurğuladı:** "Bu mərkəzin nizamnaməsinə baxsaq, görərik ki, əsasən strategiyanı müəyyən etmək, iqtisadi islahatları hansı istiqamətdə aparmaq istiqamətində fəaliyyət göstərəcək. Orada əsasən beyinlər toplaşacaq. Əsas odur ki, o beyinlər makroiqtisadi vəziyyəti bilən insanlar olsun, onların verdiyi təkliflər Azərbaycanda inkişafa şərait yaratsın. Belə bir mərkəzin olması müsbət haldır. Düzdür, cənab prezidentin iqtisadi islahatlarla bağlı xüsusi müşaviri var, aldığım məlumata görə, o çox gərgin işləyir və bu sahədə cənab prezidentin verdiyi fərmanlar, sərəncamlar o təşkilatın əməyinin nəticəsidir. Yeni islahatlar dərinləşir. Söhbət yalnız iqtisadi yox, həm də siyasi və struktur islahatlarından gedir. Kadr məsələsi də burada önəmlidir. Çoxlu gənc kadrlarımız var ki, xaricdə təhsil alıblar, makroiqtisadi vəziyyəti bilirlər. Bu, dövlət başçısının seçimindən asılıdır. Əlbəttə, bu sahədə təcrübəli insanlardan da istifadə etmək lazımdır".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 86 (6407) 22 aprel 2016



# Azərbaycandan mühacirlərin sayı azalıb

**Mətbuat bir zaman Azərbaycanda siyasi mühacirlərlə bağlı qalmaqallı məsələ haqda yazdı. Bununla əlaqədar müxalifətə qarşı da müəyyən ittihamlar səsləndirildi. Hazırda yenə müəyyən qrup adamlar var ki, sadə vətəndaşları aldadıb, onların pullarını alaraq siyasi mühacir kimi xarici ölkələrə göndərəcəklərini vəd ediblər.**

Bu qəbildən bir neçə dələduz aprelin 20-də yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazirliyin əməkdaşları tərəfindən Bakı şəhər sakinləri - "Mozalan" jurnalının məsul katibi Ramil Muradov və "Dövlət və ictimai fikir" qəzeti ilə "Obyektiv xəbər.com" veb saytının baş redaktoru Çingiz İbadov göstərəcəkləri xidmətin müqabilində konkret vətəndaşdan Xırdalan şəhərində razılaşdıqları 4000 manatlıq məbləğin 1300-nü və sənədlərinin surətlərini alarkən saxlanılıblar.

Araşdırmalar nəticəsində məlum olub ki, onlar həmin vətəndaşın adından sosial şəbəkələrdə və bir sıra elektron kütləvi informasiya vasitələrində Azərbaycanın dövlət mənafeyi və ümummilli maraqları əleyhinə yanlış, qərəzli məlumatlar, eyni zamanda sonuncunun guya ölkəmizin hüquq-mühafizə orqanları tərəfindən əsassız təqib edilməsi, hüquqlarının pozulması barədə böhtan xarakterli materiallar yerləşdiriblər.

Təbii ki, ölkədə müxalif fikirli şəxslərin incidilməsi, onların iş yerləri ilə təmin edilməməsi danılmaz faktdır. Bu üzdən ölkəni tərk etmək məcburiyyətində olan siyasi mühacirlərimiz də kifayət qədərdir. Mühacir axını bir neçə il əvvəl kəskin şəkildə artmışdı da. Bəs indi vəziyyət necədir? Ümumiyyətlə, ölkədəki siyasi mühit siyasi mühacir axınını yenə labüd edirmi?

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah partiya üzvlərinin daim təzyiq altında olduğunu dedi:** "Müsavat Partiyası üzvləri daim təzyiq altındadır. Üzvlərimizin əksəriyyəti psixoloji cəhətdən olan təzyiqlərə əvvəlcədən hazırdır. Çünki mübarizə aparırlar. Bu baxımdan Müsavatda heç vaxt axın şəklində mühacirət dövrü olmayıb. Hazırda da yoxdur. Partiyada mühacir axınının olması mümkün də deyil. Çünki hansı ölkədə hansı avtoritar sistemdə fəaliyyət göstərdiklərini bilirlər və o təzyiqlər də təəssüflər olsun ki, rejimin mahiyyətinə uyğun olaraq gözləniləndir".



**Elman Fəttah:**
"Müsavat üzvləri daim təzyiq altında olsa da, mühacir axını mümkün deyil"

**ADP sədri Sərdar Cəlaloğlu ADP-dən mühacirətə getmək istəyənlərin olmadığını dedi:** "Azərbaycanda siyasi islahatlar həyata keçirilmir. Siyasi vəziyyətlə bağlı problemlər gündəmdə qaldığından, siyasi mühacir problemi də öz aktuallığını saxlayır. Bizim partiyadan mühacirətə getmək istəyən yoxdur".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə partiyadan bu günə kimi heç kimin mühacirətə getmədiyini dedi:** "Mühacirətlə bağlı problem fərdlərin gəldiyi qənaətdir. Ona görə də mən bu barədə nəsə deyə bilmərəm. Özümün mühacirət etmək fikri yoxdur və fəaliyyətimi davam etdirəcəm. Bizim partiyadan da siyasi mühacir yoxdur".



**Hikmət Hacızadə:**
"Azərbaycanda siyasi mühacirət üçün labüd mühit qalır"

**Azərbaycandakı siyasi durumu dəyərləndirən politoloq Hikmət Hacızadə hazırda ölkədə siyasətçilərin açıq şəkildə incidildiyini və buna görə də mühacirət üçün labüd mühit olduğunu dedi:** "Hazırda çoxlu sayda günahsız insanlar həbsxanadadır. Qəzetlər azad deyil. Siyasi partiyalara mitinqlər keçirməyə imkan vermirlər. Siyasi fəallara iş vermirlər. Mən hesab edirəm ki, Azərbaycanda siyasi mühacirət üçün labüd mühit var. Siyasi əqidəsinə görə iş tapa bilməyən, qohumları incidilən, həbsə atılan adamlar var".



**Novella Cəfəroğlu:**
"Mühacirətə gedənlərə deyirəm ki, gəlib Azərbaycanda mübarizə aparsınlar"

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu isə mühacirətə getmək əvəzinə insanların Azərbaycanda qalıb mübarizə aparmasının tərəfdarı olduğunu dedi:** "Əgər insanlar Azərbaycanda dəyişiklik olunmasını istəyirlərsə, Azərbaycan dövlətinin demokratik, qüvvətli bir dövlət olmasını istəyirlərsə, siyasi mühacirətə getməyə ehtiyac yoxdur. Azərbaycanda oturub elə buradaca mübarizəni aparmaq lazımdır. O qədər siyasətçilər var ki, həbsə də düşüblər, incidiliblər də, amma mühacirətə getməyiblər. Çünki təmənnasız, pulsuz işləyiblər. Siyasi mühacirətə daha çox əlləri pulla oynayan QHT-lər gedir. Mən hesab edirəm ki, mühit elədir ki, burada işləyib, mübarizə aparmaq olar. Mən özüm 1993-cü ildən türməyə də düşmüşəm, döyülmüşəm də, söyülmüşəm də, cəmiyyətimizə basqı da olub. Amma 24 ildir bizim cəmiyyətimizə, qızlarımıza güclü təzyiqlər olub, lakin bizim cəmiyyətimizdən bir nəfər də olsun mühacirətə getməyib. Azərbaycanı sevən insanlar, Azərbaycanı dəyişmək istəyən insanlar, insan haqlarını qoruyan insanların hamısı Azərbaycanda qalmalı və burada mübarizə aparmalıdır. Mən mühacirətə getmiş insanlara deyirəm ki, gəlib Azərbaycanda mübarizə aparsınlar".

❑ **Günel MANAFLI**

# YAP-ın yardım təşəbbüsü: müxalifət həm razıdır, həm narazı

**Yeni Azərbaycan Partiyası(YAP) Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fonduna növbəti dəstək aksiyasını həyata keçirməyi qərara alıb. Bu barədə partiyanın rəsmi qəzetində yayılan xəbərdə deyilir ki, YAP-ın İcra Katibliyində, habelə rayon və şəhər təşkilatlarında çalışan 660 nəfər əməkdaş bir aylıq əmək haqqının 20 faizini Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondunun hesabına köçürmək haqqında müraciət edib.**

Bildirilir ki, YAP üzvləri tərəfindən atılmış bu addım son zamanlar ermənilər tərəfindən törədilən azğın təxribatların qarşısını igidliklə almış və düşmən həmlələrinə layiqli cavab vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinə ümumxalq inamının və dəstəyinin əyani ifadəsi kimi qiymətləndirilməlidir.



**Gülağa Aslanlı:**
"Müsavat dövlət büdcəsindən heç bir vəsait almır və maddi problemlər içərisindədir"

Müxalifət partiyalarının YAP-ın bu addımına münasibəti və onların da belə bir aksiyanı həyata keçirib-keçirməyəcəyinə gəlincə, **Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** bildirdi ki, YAP-ın maddi vəziyyəti yüksək səviyyədə olduğu üçün belə bir addımı atıb, lakin yaxşı olardı şəhid ailələrinə dəstək verilsin. Ordunun böyük məbləğdə büdcəsi dövlət tərəfindən təmin edilib: "YAP saxta seçkilər nəticəsində parlamentdə çoxluğa sahiblənib və öz xeyirlərinə qəbul etdikləri "Siyasi partiyaların büdcədən maliyyələşməsi haqqında" Qanuna görə, dövlət büdcəsindən çox böyük məbləğdə maliyyə vəsaiti alır. Ona görə də YAP mərkəzi qərargahda və rayon təşkilatlarında işləyən insanlara əmək haqqı verə bilir. Müsavat Partiyası və digər müxalifət partiyaları isə parlamentə buraxılmadıqları üçün dövlət büdcəsindən heç bir vəsait almırlar və maddi problemlər içərisindədirlər. Müsavat Partiyasının vəsaiti olmadığı üçün heç kimə əmək haqqı verə bilmir. Biz partiyanın yerləşdiyi binanın icarə və kommunal xərclərini ödəməkdə belə çətinlik çəkirik. Belə bir vəziyyət olduğu üçün Müsavat Partiyası orduya vəsait ayırmaq imkanında deyil. İkincisi, büdcəsi 6 milyarda yaxın olan orduya kənardan partiyaların vəsait ayırmasına ehtiyac yoxdur. Bu yaxınlarda Müdafiə Nazirliyi də bu barədə açıqlama vermişdi. Biz hesab edirik ki, daha yaxşı olardı ki, şəhidlərin ailələrinə vəsaitlər ayrılsın, dövlət şəhidlərin övladlarını 18 yaşı tamam olana qədər himayəyə götürsün. Şəhid ailələrinə, yaralılara xidmət eləmək, hansısa yardımlar etmək məsələsində isə Müsavat Partiyasının tədbirləri olacaq".



**Əli Orucov:**
"Silahlı Qüvvələrə Yardım Fonduna pul köçürməyi məmnuniyyətlə edərdik, nə yazıq ki..."

**AMİP katibi Əli Orucov bildirdi ki, Azərbaycan ordusu dövlət tərəfindən yüksək maddi təmin edilir. Lakin hər bir halda YAP-ın başlatdığı aksiyanı təqdirəlayiq hesab etmək olar:** "Əvvəla, Azərbaycan ordusu yüksək səviyyədə dövlət tərəfindən təmin olunub. Hər il orduya dövlət büdcəsindən yetərincə vəsait ayrılır. Əgər həmin vəsaitin hamısı təyinatı ilə xərclənərsə, mənimsəmələrə və israfçılığa yol verilməsə, ordunun kənar yardımlara ehtiyacı qalmaz. Lakin bununla belə, YAP-ın başlatdığı aksiyanı təqdirəlayiq hesab etmək olar. Məncə, YAP bir qədər xəsislik edir, 20 faiz hakim partiya üçün o qədər də böyük rəqəm deyil. Külli miqdarda gəlirləri və əmlakı olan hakim partiya daha çox yardım ödəmək imkanlarına malikdir. O ki qaldı müxalif partiyalarının Silahlı Qüvvələrə Yardım Fondunun hesabına pul köçürmək məsələsinə, biz bunu məmnuniyyətlə edərdik. Özü də YAP-dan fərqli olaraq daha səxavətlə. Nə yazıqlar ki, AMİP də daxil olmaqla, ölkənin aparıcı müxalif qüvvələri nə dövlət büdcəsindən maliyyə alır, nə də hansısa gəlirlərə malikdir. Onların çoxunun gündəlik fəaliyyət göstərməli üçün nə yerləri, qərargahları, nə texniki avadanlıqları, nə də əmək haqqı alan əməkdaşları var. Bu gün Azərbaycan müxalifətinin texniki və maddi təminatı sıfırdır. Bu ağır durum həm də iqtidarın xüsusiyyətini və mahiyyətini əks etdirən real mənzərədir. Lakin buna baxmayaraq, AMİP-çilər bir nəfər kimi Silahlı Qüvvələrimizin tərkibində torpaq uğrunda ən qiymətli olan həyatlarını və canlarını qurban verməyə hazırdır".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 86 (6407) 22 aprel 2016




# Kəbə mövludlu paklıq rəmzi

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək Rəcəb ayında yaşayırıq. Bu ayın ən böyük tarixlərindən biri - İmam Əlinin (ə) dünyaya gəlişi ilə bağlıdır. Əziz İmamımız (ə) "Fil ili"ndən 30 il sonra, rəcəb ayının 13-də, Məkkədə, Kəbə evində dünyaya gəlmişdir. O, Kəbə evinin daxilində dünyaya gələn yeganə insandır.**

## Həqiqi paklığın rəmzi

Həzrət Əlinin (ə) mübarək mövludu günləridir. Və bu günlərdə Əli (ə) dühasını dərk etmək, Əli (ə) zirvəsini anlamağa çalışmaq xüsusilə mühüm əhəmiyyət kəsb edir. Həzrət Əlinin (ə) şəxsiyyətini səciyyələndirmək olduqca çətin məsələlərdəndir. Çoxları onu Peyğəmbərin (s) ən gözəl şagirdi, Rəsulallahın (s) insan yetişdirmək məktəbinin ən nəcib məzunu kimi səciyyələndirə bilər. Və onlarla, yüzlərlə bu cür çalarlar gərəkdir ki, Həzrət Əli (ə) fenomeninə bir qədər yaxınlaşmaq imkanı əldə edilsin. Fikrimizcə, Həzrət Əlini (ə) bir sözlə xarakterizə etmək istəsək, deyərik ki, o, həqiqi paklığın rəmzidir. Dost da, düşmən də inkar edə bilməz ki, paklıq, təmizlik, dürüstlük baxımından misilsiz bir insan idi Həzrət Əli (ə)!

İmamın (ə) paklığı onun bütün təzahürlərində öz əksini tapmışdır. O, Allah evində dünyaya gəldi - bütün müsəlmanların qibləsi olan Kəbə evində! Kəbə mövludlu bu pak insan, Peyğəmbər (s) bağının ən gözəl yetirməsi olaraq, misli-bərabəri olmayan bir zirvə idi həm öz zamanı üçün, həm də bütün zamanlar üçün.

İstər dünyagörüşü baxımından, istər insanlara baxışa görə, istər dünyaya baxışa görə - Həzrət Əli (ə) bir paklıq nümunəsidir. Ən başlıcası budur ki, İmam Əli (ə) şəxsiyyətində niyyətlə əməlin ən gözəl vəhdəti cəmlənmişdir. Əxlaqda, əməldə, insanlarla rəftarda təzahür edilib bu paklıq. Müsibətlərdə, sıxıntılarda, ağlasığmaz çətinliklərdə təzahür edilib bu paklıq. Nəinki sadəcə yaşadılıb, hətta çətin durumlarda Əli (ə) paklığı - Əli (ə) dönməzliyinin ən gözəl bir təzahürü olub.

Və bu müqəddəs paklıq Həzrət Əlinin (ə) həyatının bütün mərhələlərində təşəkkül tapır. İstər Rəsulullahın (s) yanında böyüyüb boya-başa çatdığı dövrdə, istər İslamın ilk dövrlərində, istər İslam düşmənləri ilə mübarizə dövründə, istər Peyğəmbərimizin (s) həyatdan köçməsi zamanı, imamət dövründə, istər ona qarşı fitnə törədiləndə, istər fəthlər zamanı, zahiri xilafət dövründə - bütün dövranlarda Əli (ə) paklığı dillər əzbəri, möminlər üçün nümunə və örnək olub, və üstündən 1400 il keçsə də, indi də bütün iman əhli üçün, tərəqqipərvər bəşər üçün örnək olmaqdadır.

Bəs nə üçün ağrılı günlərdə, çətin durumda Həzrət Əlinin (ə) paklığı daha çox təzahür edilirdi? Çünki İmamın (ə) paklığı İlahi məhəbbətdən qaynaqlanırdı. Və çətinliklərə sinə gərdikcə, imanını daha çox təzahür etdikcə, bunu bir İlahi tofiqatdan sanırdı.

Necə ki, qaranlıqda işıq mənbəyinin nuru daha da çox gözə çarpar, o qədər də ətraf qaranlıqlaşdıqca, zülmətləşdikcə, öz eyiblərini ortalığa qoyduqca Həzrət Əlinin (ə) paklıq nuru bir o qədər də güclü parlayırdı. Bu müsibət və çətinliklər Əli (ə) şəxsiyyətinin gözəl mahiyyətinin daha da güclü təzahürünə səbəb olurdu.

## İnsanın nöqsanlarının Yaradana aidiyyəti yoxdur

İlahi məhəbbət və imandan qaynaqlanan Əli (ə) dühasında, ibadət edilən məbudu tanımağın əhəmiyyəti xüsusilə vurğulanırdı. Allah Təbarəkə və Təalanı insanlara tanıtdıraraq, Həzrət Əli (ə) buyurmuşdur: **"O, bir varlıqdır ki, bəndələrinə münasibətdə azacıq da olsa, zülmə yol verməz".**

Həzrət Əli (ə) izah edir ki, insana xas nöqsanların, eyiblərin, çatışmazlıqların, insan həyatında baş verən müxtəlif çeşidli problemlərin Allah Təalaya zərrə qədər də aidiyyəti yoxdur. Bunlar - insanın öz əməllərinin məhsullarıdır.

Allah Təala insana zərrə qədər zülm etməz. Nə dünyada, nə də axirətdə. İnsandır özünü zülmə məruz qoyan. Uca Allah zülm etməkdən tamamən pakdır, münəzzəhdir. Zülm - nöqsandır, çatışmazlıqdır, naqislikdir; bu sifətlər isə ehtiyaclılıq yaradır, ehtiyaclıq isə Mütləqiyyətə, Qüdrətə zidd olduğu üçün, Uca Allahın zatına ziddir.

Həzrət Əli (ə) etiqadı insana çatdırır ki, yaşayışının eyibləri, nöqsanları, həyatının çatışmazlıqları, çətinlik və ağrıları özünə rəvac bildiyin zülmün məhsuludur. Zülmsə nədir? Nəyinsə öz yerində olmaması, mövcudiyyət fəlsəfəsinin əksinə istismar edilməsi, lazımın ziddi, əksi. Bəs kim müəyyən edə bilər nə necə istifadə olunmalıdır? Əlbəttə ki, həmin bu nəyisə yaradan. Deməli, insanın nəyi necə etməli məsələsini mövcudiyyətin Uca Yaradanı müəyyən edə bilər. Beləliklə, insan Xaliqin tövsiyəsinin ziddinə getdikdə, özünə zülm etmiş olur. Və ona əmanət olaraq verilmiş vücuduna, ruhuna zülm etdiyi üçün özünü İlahi əzaba mübtəla edir.

Yəni Əli (ə) məntiqi ilə bəşəriyyətə çatdırılır ki, insan öz çətinliklərini, müşkül və acizliklərini Allahla bağlamalı deyil. İnsan çətinliklərinin mənbəyini Allahda axtara bilməz. Bunların mənbəyi - insanın özüdür, insan toplumudur. Hər səviyyədə - fərdi, ailə, kənd-oba, şəhər, ölkə, dünya səviyyəsində olan zülmlərdir harmoniyanı zədələyən, insanı zillətə salan.

## Xeyir istəmək və şərdən uzaqlaşmaq duası

İmam Əlinin (ə) mübarək şəxsiyyətini xatırlayanda, ilk öncə o Həzrətin (ə) Allahla münacatları göz önünə gəlir. Yaşadığımız Rəcəb ayı oruc tutmağın xüsusilə bəyənildiyi bir ay olmaqla bərabər, münacat, istiğfar ayıdır. Bu ayda çoxlu zikrlər var ki, insanın bağışlanmasının, istiğfarının açarıdır. Rəcəb ayında bu tövbə zikrinin çox deyilməsi tövsiyə olunub: **"Əstəğfirullahə və əs-əluhut-tövbəh".**

Buyurulub ki, bu zikri rəcəb ayında insan nə qədər çox desə, o qədər yaxşıdır. Mənası odur ki, "İlahi, bağışlanmaq diləyirik Səndən və tövbə arzu edirik". Buradan aydın olur ki, insan bu ayda özünün Allah dərgahına qayıtmasına, tövbə etməsinə, Allahdan bağışlanmasını diləməsinə böyük önəm verməlidir.

Rəcəb ayında gündəlik oxunan bir dua vardır ki, çox bərəkətli və nəcib münacatlardandır. Allah Təalanı tanımaq üçün bu duanın böyük əhəmiyyəti vardır. Allah Təala o qədər lətifdir ki, müxtəlif yollarla Özünü bəndəsinə tanıtdırır. Əgər insan istəyə Rəbbini tanısın, bircə elə bu duaya diqqət yetirməsi çox şeyi açar onun üçün. Allah Təala ən yüksək dərəcədə bəndəsinə Öz lütfünü göstərir. İnsan bu cümlələrə diqqət etsə, özü kimdir və Rəbbi kimdir məsələsinə xeyli aydınlıq gətirə bilər.

Duada buyrulur: **"Yə mən ərcuhu li kulli xayr" - "Ey o Kəs ki, bütün xeyirlərdə Ona ümidliyəm".**

Sonra: **"Və əmənu səxatahu 'ində kulli şərr"** - "Onun qəzəbinə səbəb olan bütün şərlərdən Ondan aman diləyirəm".

Sonrakı cümlə məxsusən şirindir. Buyrulur: **"Yə mən yu'til-kəsira bil-qalil" - "Ey o Allah ki, mənim az əməlimin müqabilində çox əta edir".** Sonra: **"Yə mən yu'ti mən sə-ələhu» - "Ey o Allah ki, Ondan istəyənə əta edir".** Sonra bir qədər də şirinləşir: **"Yə mən yu'ti mən ləm yəs'əlhu, və mən ləm yə'rifhu» - "Ey o Allah ki, Ondan istəməyənə də əta edir. Və (hətta) Onu tanımayana da əta edir".**

Bəndə deyir: **"Sən o Allahsan ki, Səndən istəməyənə və Səni tanımayana da əta edirsən. Bəs mən gəlmişəm, Səndən istəyirəm" və sonra deyir: "Təhənnunən minhu və rahməh" - "Öz geniş rəhmətinlə və lütfünlə edirsən". Yəni bəndə deyir: "İndi mən gəlmişəm, öz dilimlə istəyirəm. Sən Öz geniş rəhmətinlə mənə əta et".**

Nəyin əta olunmasını istəyir bəndə? Sonrakı cümlədə bu, açıqlanır: **"Ə'tini biməs'ələti iyyəkə, cəmi'ə xayrid-dunyə və cəmi'ə xayril-əxirah» - "İlahi, Pərvərdigara! Mənə bu dünyanın və axirətin bütün xeyirlərini nəsib et".**

Sonra buyurulur: **"Vəsrif ənni biməs'ələti iyyəkə, cəmi'ə şərrid-dunyə və şərril-əxirah» - "İlahi, məndən bütün bu dünyanın və axirətin şərlərini uzaq et!".**

Bu dünyanın şərləri nədir? Bu dünyanın şərlərindən biri də odur ki, məni qorxaqlardan qərar vermə, məni yaltaqlardan qərar vermə, məni ikiüzlülərdən qərar vermə, məni insanlıqdan uzaq düşənlərdən, haqq basanlardan, zülm edənlərdən qərar vermə!

Məni axirət şərindən uzaq et. Axirət şəri nədir? Ən böyük axirət şəri odur ki, insan Qiyamət günü yezidlərlə, müaviyələrlə, hitlerlərlə, səddamlarla məşhur olsun, zalımlarla bir dirilsin. Zalımların qələm tutanlarından olsun, haqqı basıb, nahaqqı deyənlərlə birgə olsun. Axirət şəri odur ki, insan Qiyamət günü birdən ayılıb görsün ki, məşhur olub o kəslərlə ki, Kərbəlada İmam Hüseynin (ə) qarşısını kəsdilər, onun balalarının üzünə suyu bağladılar! Məhşur ola o kəslərlə ki, dünya malına aldanıb, öz həyatlarını puç etdilər, insanlara sitəm etdilər, Allah evlərini viran etdilər.

Rəcəb bizə bunu öyrədir. Xeyir və şər deyəndə ilk növbədə insanın şəxsiyyəti ilə bağlı məqamlar nəzərdə tutulur.

Mübarək duanın sonunda Allah Təalaya müraciətlə çox məhrəm və şirin tərzdə əzabdan amanda qalmaq, nicat tapmaq istənilir. Cəhənnəm odunun dua edənin cisminə yaxın düşməməsi dilənilir.

## Mənəvi islahatlar ayı

Bəli, Uca Allah hər zaman eşidən, hər zaman dua qəbul edəndir. Amma necə ki, günlərin arasında xüsusi önəmli olanı var - məsələn, cümə günü kimi, eləcə Allah Təbarəkə və Təala xüsusi vaxtlar qoyub ki, insanlar o vaxtlara diqqət ayırıb, başqa vaxtlarda çata bilməyəcəklərinə bunlarda tam yiyələnə bilsinlər.

Rəcəb ayında Allahın lütfü, inayəti tam surətdə iman əhlinin, bu ayın orucunu tutanların üzərindədir. Rəcəb ayının əməlllərinə sahib çıxanların üzərindədir Allahın xüsusi nəzəri. Əslində Rəcəb ayı - Ramazan ayında İlahi nemət ziyafətinə hazırlıq mərhələsidir. İnsan Ramazan ayında İlahi nemət süfrəsindən tam formada bəhrələnmək istəyirsə, rəcəb-şəban ayları ona bu imkanları kamil surətdə təqdim edir.

Rəcəb ayı - İlahi ziyafətə hazırlıq ayıdır. Bu ayın hətta 1 gün orucu Allahın razılığını əldə etmək üçün gözəl vasitədir. Bu ayın hətta 1 gününün orucu İlahi qəzəbi söndürər. Əməl var - cəhənnəmə qapı açır, əməl də var ki, cəhənnəmin qapısını bağlayır. Rəcəb ayı - o aylardandır ki, cəhənnəm qapılarını bağlamaq fürsətlərini Allah Təala bəndəyə xüsusən təqdim edər.

Rəcəb ayı - mənəviyyat, islahat ayıdır. İnsanları bu gün dünyada hər şeydən çox düşündürən mövzu - mənəviyyat, əxlaq mövzusudur. Dünyada başdan-başa əxlaqsızlığın, mənəviyyatsızlığın, zülmün aşıb-daşdığı bir vaxtda iman əhli üçün, mənəviyyat əldə etmək istəyən üçün ən gözəl fürsət var rəcəb ayında.

## İradəvi peşmançılığın göstəricisi

İnsanın bir varlıq olaraq zəif, ehtiyaclı, asılı varlıq olmasını sübut edən amillərdən biri də onun günah etməsindir. Günahların böyük və kiçik olmasından asılı olmayaraq, insan onu etməklə əslində nə qədər zəif bir varlıq olduğunu sübut edir. Bu günahlardan sonra Allaha sığınmaq, Allahdan onun bağışlanmasını diləmək isə, Allahın mərhəməti olmadan məhv ola biləcəyimiz anlamındadır.

Həzrət Əli (ə) buyurur: **"Günah etdiyin zaman, tövbə ilə onun məhvinə tələs".** İnsanlar heç də hər zaman öz nəfsi ilə mübarizədə qalib gələ bilmir. İnsan hər dəfə günah, xəta edən zaman öz zəifliyini, öz acizliyini tanımış olur. Bu durumda Allaha sığınmaq, Allahdan məğfirət, bağışlanma diləmək - əslində insana Rəbbi ilə münasibət qurmağa yardımçı olur. İnsan dərk edir ki, Allaha sığınmasa, Allahdan məğfirət diləməsə - məhv ola bilər.

Günahlar deyildikdə, nədənsə insanların düşüncəsinə ilk növbədə böyük günahlar gəlir. Halbuki, Allahın razı olmadığı bütün işlər, Allaha itaətsizlikdən etdiyimiz bütün səhvləri bu qəbildən qəbul etməliyik. Həzrət Əli (ə) bizlərə xəbərdarlıq edir ki, günahlara görə dərhal tövbə edilməlidir. Anlaşılır ki, əgər həmin günahlara görə tövbə etmiriksə, bu, bizim ruhiyyəmizdə təsir qoya bilər. Tövbə - günahları məhv edib aradan aparan yeganə vasitədir. Tövbə - insanın iradəvi peşmançılığının göstəricisidir.

Həzrət Əmirəlmöminin (ə) tövbə ilə bağlı digər bir yerdə buyurur: **"Tövbə işini sabaha saxlayan - ölümün hücumu ilə çox böyük təhlükə qarşısındadır".** İnsanlar bəzən tövbələrini də bir neçə böyük günahlarla məhdudlaşdırır. Təbii ki, böyük günahlara görə tövbə etmək vacibdir. Lakin, insan digər günahları və xətalarını da xatırlamalı, onlar üçün gec olmadan tövbə etməlidir. İnsanı tövbəyə yönəldən əsas vasitələrdən biri və hətta birincisi - ölümü xatırlamaqdır. Çünki insan hər an ölə biləcəyini düşünsə, günahlardan tövbəsini sonraya saxlamaz.

Həzrət Rəsulallah (s) buyurur: **"Gözü ölümün yolunu çəkən, yaxşı əməllər görməyə çalışar".** Mömin bir bəndə üçün qəfil ölüm - bir nemətdir. Çünki, o, ömrünü hər zaman ölümü xatırlamaqla keçirir, buna hazırlaşır. Bir uzun yola səfərə çıxmağa hazırlaşan şəxs və bu səfərin onun daimi yeri olacağını bilən insan, gedəcəyi yer üçün ən yaxşı azuqələrdən toplamağa çalışar. Mömin anlayır ki, o biri dünya üçün ən yaxşı yük - gözəl əməldir. Bu səbəbdən, ölümə hazırlaşan insan, yaxşı əməllər görməyə çalışar. Ölüm haqda təfəkkürümüz tövbəyə gətirib çıxarar.

Həzrət Əmirəlmöminin (ə) buyurub: **"Allah Öz qəzəbini günahda gizlədib. Heç bir günahı az hesab etməyin. Ola bilər ki, Allahın qəzəbi həmin günahda gizlənmiş olsun".** Həzrət Əli (ə) bizləri böyük təhlükə barədə öncədən xəbərdar edir. Bizlər heç bir günahımızı gərək yüngül, kiçik bilməyək, günahlarımızla bağlı səhlənkar davranmayaq. Elə bir günah edə bilərik ki, biz əslində onu kiçik günah hesab edirik, amma Allahın bütün qəzəbi məhz o günahda gizlənib. Bəzən o qədər də əhəmiyyət vermədiyimiz məsələlərin içərisindədir Allahın qəzəbi.

**Kiçik sandığımız bir günah bizi elə bir mənfi hala gətirər ki, artıq bütün aqibətimizi zay etmiş olarıq. Ona görə də, insan gərək özü ilə, davranışları, etdiyi əməllərlə bağlı hər zaman ayıq-sayıq olsun, heç bir günahı səhlənkarlıqdan və ya kiçik bilməsi səbəbindən etməsin.**

**Allahım, bizləri İmam Əlinin (ə) həqiqi ardıcıllarından qərar ver!**

**Allahım, bizləri Öz rəhmətinə qərq et!**

**Allahım, bizlərə Rəcəbin nemətlərindən bol-bol inayət et! Amin!**

# Bu yay Krıma getməyin...

## "Azərbaycan vətəndaşının Krıma səfəri yanlış addım olar"

**2014-cü ilin mart ayında Krım Rusiya tərəfindən ilhaq edildi. Simferopolda qalan sonuncu Ukrayna bayrağı isə Rusiya tərəfindən 30 sentyabr 2014-cü ildə endirildi və bununla da Krım Rusiya tərəfindən tam anneksiya edilmiş hesab olundu.**



Lakin qeyd olunur ki, hazırda yarımadada yaşayanların ikili vətəndaşlığı var. Belə ki, onlar həm Ukrayna, həm də Rusiya vətəndaşıdırlar. Ancaq faktiki olaraq bütün dünya, Qərb Krımın Rusiya tərəfindən zəbt olunduğunu hesab edir. Bəs Bakı Krımı hansı statusda qəbul edir? Əgər Azərbaycandan Krıma gedənlər olarsa onları nə gözləyir?

Politoloqlar çıxışlarında bildiriblər ki, Azərbaycan Ukraynanın ərazi bütövlüyünü tanıyır və ona dəstək verir. Rusiyanın Krımı anneksiya etməsini isə qanunsuz sayır. Elə BMT-dəki səsvermədə də Bakı Ukraynanı müdafiə etdi. Politoloq Hikmət Hacızadə isə "Yeni Müsavat"a bildirib ki, müstəqillik siyasəti aparsaq, gərək Krımda qeydiyyatda olub, rus pasportu ilə gələn adamlar Azərbaycana daxil olmasın: "Hər halda, Krımın işğalını və Rusiyaya birləşdirilməsini dünyada heç kim tanımayıb. Həmin hal cənubi Osetiya və Abxaziyaya da aiddir. Osetiya qeydiyyatı və Rusiya pasportu ilə Avropaya gedən şəxslər oraya buraxılmır. Şəxsən belə adamlar görmüşəm. Beynəlxalq hüquqa görə bu cür tənzimlənməlidir. Kimlərinsə Krıma getməsinə gəlincə, Ukrayna gərək bəyan etsin ki, icazəm olmadan bu əraziyə heç kim girməsin. Gürcüstan, Azərbaycan öz məlum əraziləri ilə bağlı belə bir qərar qəbul ediblər".

**Mövzu ilə bağlı politoloq Elxan Şahinoğlu "Yeni Müsavat" a söyləyib ki, Krımın statusu Azərbaycan üçün bəllidir:** "Azərbaycan Krımı Ukraynanın ərazisi sayır və buna müvafiq olaraq da Birləşmiş Millətlər Təşkilatında keçirilən səsvermədə Ukraynanın ərazi bütövlüyünə bir daha səs verib. Halbuki Ermənistan bu səsvermənin əleyhinə olub. Bu siyasətdən çıxış edərək, bir daha xatırlatmalıyıq ki, Azərbaycan Krımı Ukraynanın ərazisi hesab edir. Ancaq buna baxmayaraq, reallıqlar da var. Reallıq bundan ibarətdir ki, Rusiya Krımı işğal edib. Azərbaycan tərəfi bu işğala görə Rusiyanı birbaşa qınaya bilmir. 2008-ci ildə Rusiya ordusu Gürcüstana müdaxilə edərək Abxaziya və Osetiyanı ələ keçirdikdə, Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü dəstəkləsə də Rusiyanı birbaşa ittiham etmədi. Çünki Rusiya ilə münasibətlər məsələsi də var. Başqa tonda çıxış edərsək, münasibətlər gərginləşə bilər".

**Politoloq bildirib ki, Azərbaycan vətəndaşlarının Krıma səfəri yanlış bir addım olardı:** "Məndə olan məlumata görə, Rusiya bir zamanlar çox çalışıb ki, Bakıdakı şirkətləri insanların Krımda istirahəti üçün müəyyən əlaqə yaratsınlar. Lakin məlumata görə, sonradan bununla bağlı Azərbaycan hakimiyyətinə xəbərdarlıq edilib və turizm şirkətləri bu cür əməllərindən vaz keçiblər. Əgər bu məsələ gerçəkləşdirilərdisə, bizim Qarabağla bağlı siyasətimiz də iflasa uğraya bilərdi. Çünki biz də Qarabağa Azərbaycanın icazəsini almadan, Ermənistan üzərindən gedənləri qara siyahıya salırıq. Əgər biz Azərbaycan vətəndaşlarının Krıma səyahətlərinə göz yumsaydıq, o zaman ikili standartdan çıxış etmiş olardıq. Çünki Ukraynanın da belə bir siyahısı var ki, Krıma kim getmək istəyirsə, onlarla bunu razılaşdırmalıdırlar. Qısası, Azərbaycan vətəndaşlarının Krıma birbaşa və Rusiya üzərindən getməsi doğru deyil. Krım işğal edilmiş ərazidir. Əgər kimsə ora getmək istəyirsə, bunu Ukrayna üzərindən etməlidir".

❑ **Əli RAİS**








## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**
**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Əlaqə nömrəsi (050) 264 49 99**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**
**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

# YENİ MÜSAVAT

**Son səhifə**

N 86 (6407) 22 aprel 2016




## İngiltərədə 4 yaşlı uşaqlara qarşı təhqir

İngiltərənin Brayton-i-Hov şəhərində yerli rəhbərliyin addımı valideynlərin qəzəbinə səbəb olub. Belə ki, gələcəyin şagirdi olan 4 yaşlı uşaqlara anketi valideynləri ilə birgə doldurarkən "sən özünü hansı cinsdən hiss edirsən" sualına cavab verməları tələb olunub. İzahat isə belə olub ki, "əgər sizin uşaq özünü orta cinsə aid hiss edirsə, siz bu anketi doldurmadan bu məsələni bizim məktəbin rəhbərliyi ilə müzakirə edə bilərsiz".

Amma şəhər rəhbərliyinin bu addımı valideynlər arasında ciddi narazılıq yaradıb. "Axı onlar böyük adam deyillər və hələ cinsi yetişkənlik dövrünə qədəm qoymayıblar. Buna görə də özlərini hansı cinsdən hiss etdiklərini bilmirlər". Bunu da analardan biri deyib.

Britaniya parlamentinin üzvü Endryu Bridcen də yerli hakimiyyətin bu addımını anormal adlandırıb. "Məktəblərdə uşaqlara yazıb oxumağı öyrətmək lazımdır, cinsiyyətini dəyişdirməyə hazırlamaq yox".

Amma bu etirazlara baxmayaraq, yerli hakimiyyət orqanları deyiblər ki, anketlərin doldurulması heç də vacib deyil və bu məsələnin valideynlərlə uşaqlar arasında müzakirəsi də vacib deyil. Bununla belə, qeyd edilib ki, son vaxtlar İngiltərədə özünü trans adlandıran uşaq və yeniyetmələrin sayı artıb.

## Plastik əməliyyata 700 min dollar xərclədi

Xarici görünüşünün dəyişməsinə 700 min dollardan artıq vəsait xərcləyən London sakini öz evində kosmetik prosedurlar keçirəcəyi kabinet açıb. 55 yaşlı Sara Berc bu günə qədər 150-yə yaxın plastik əməliyyat keçirib, bu sahədə ilkin təhsil alıb ki, bəzi prosedurları müstəqil həyata keçirə bilsin. Üç uşaq anası botoks inyeksiyası, burun, dodaq və yanaq formasını dəyişmək üçün rəsmi icazə alıb. Britaniyalının sözlərinə görə, o, evdəki zorakılıq qurbanı olan qadınlara bu formada yardım etmək üçün təcrübə qazanıb. Berc deyib ki, özü fiziki təzyiq qurbanı olandan sonra plastik əməliyyat etdirib. Qadına naməlum insanlar hücum edərək, üzünü pis vəziyyətə qoymuşdular: "Plastik əməliyyat mənə arzuladığım sifəti və bədəni verdi. Mən indi digər qadınlara kömək etmək istəyirəm".



London sakininin konkret hansı əməliyyatlar keçirməsi açıqlanmır.

## Keçmiş sevgilisini söymək istəyənlər üçün kitab hazırlanıb

Avstraliyanın "Creative Collective" nəşriyyatı sevgilisindən ayrılanlar üçün maraqlı kitab hazırlayıb. Kitab başdan-ayağa rəngli şəkillərdən ibarətdir. "Xoşbəxt ol, axmaq" adlı kitabda keçmiş sevgiliyə ünvanlanan müxtəlif söyüşlər yer alır. "Creative Collective" heyəti bəyan edib ki, bu kitab ayrılıq ağrısı çəkənlərin yükünü azaltmağa, keçmişdə yaşananları beyindən silməyə hesablanıb. Söyüş və aşağılayıcı sözlərlə paralel, kitabda insana ruh yüksəkliyi verən frazalar da yer alıb: "Mən daha yaxşısına layiqəm", "Anacanımla xoşbəxt yaşa".

Kitabın müəllifləri bildiriblər ki, onların hər biri belə bir ayrılıq ağrısı yaşayıblar. "Biz qərar verdik ki, insanlara öz keçmiş sevgililərinə deyə biləcəkləri sözlərin toplusunu hazırlayaq. Və onlar anlasınlar ki, tək deyillər, onların yaşadıqlarını yaşayanlar olub və olacaq".

Rəngli kitabı internetdə 8.5 dollara satın almaq olar.







## Yeni 20 dollarlığın üzərində qadın fotoları olacaq

ABŞ hökuməti 5, 10 və 20 dollarlıq bankomatləri yenidən hazırlamaq qərarına gəlib. Bu dəfə qadın haqları və demokratiya mövzuları əsas götürüləcək və ABŞ dollarında qaradərili bir qadının portretindən istifadə ediləcək. ABŞ Xəzinə Nazirliyindən verilən açıqlamaya görə, yeni 20 dollarlıq əsginazın ön tərəfinə quldarlığa etiraz edən, Afrika əsilli amerikalı Harriet Tubmanın portreti yer alacaq. Banknotun arxasında isə ABŞ-ın 7-ci prezidenti Andru Ceksonun portreti və Ağ Evin fotoları əks olunacaq. Beləcə yeni 20 dollarlar qaradərili bir qadının rəsmini daşıyan ilk ABŞ banknotu olaraq tarixə keçəcək. Məlumatda bildirilir ki, yeni bankotların dizaynı 2020-ci ilə qədər yekunlaşacaq. Bu da amerikalı qadınların səsvermə hüququ qazanmasının 100-cü ildönümünə təsadüf edir.




**QOÇ** - Məsləhətsiz addım atmayın. Yaxşı bilirsiniz ki, tərslik etmək sizə xeyir gətirmir. Elə hərəkət edin ki, ətrafdakıların rəğbətini qazanasınız. Bu gün ağır fiziki işlərdən uzaq durun.

**BUĞA** - Müəyyən gərginliklər müşahidə olunsa da, bu, heç də insanlardan irəli gəlməyəcək. Qarşılaşdığınız çətinliklərə qarşı tədbirli olun. Göy qübbəsi tənbəllinizdən şikayətlənir.

**ƏKİZLƏR** - Bu maraqlı gündə maliyyə problemlərinizin həllini sürətləndirməlisiniz. Bu, hər mənada sizə kömək ola bilər. Yeni işlərə başlamaq üçün təcrübəli insanlarla müzakirələr aparın.

**XƏRÇƏNG** - Əsəbi situasiyalara mübtəla olsanız da, mətinliyiniz sayəsində nəticə öz xeyrinizə tamamlanacaq. Nahar ərəfəsində və axşama yaxın büdcənizi artırmaq imkanı qazanacaqsınız.

**ŞİR** - Yaxşı olar ki, bu gün işlə məşğul olmayasınız. Çünki bəxtinizin işdən kənarda gətirəcəyi bildirilir. Dostlarınızın əhatəsində olun. Uzaq olmayan ünvanlara səfər də edə bilərsiniz.

**QIZ** - Xoş xəbərlər yolunuzu gözləyir. Aldığınız hər bir təklif zövqünüzcə olacaq. Günün ikinci yarısında isə əzmkarlığınızı artırmaqla pul əldə edə bilərsiniz. Səfərə çıxmayın.

**TƏRƏZİ** - Maraqlı hadisələrlə rastlaşacaqsınız. Oturaq fəaliyyətə ara verin. Sevdiyiniz adamların arasında olmaqla sevincinizi artıra bilərsiniz. Taleyinizdə dönüş ərəfəsi başlamaqdadır.

**ƏQRƏB** - Gecədən bəri mənfi enerjili Ay bürcünüzdə qərar tutsa da, bu, xəstəlik və ya qanqaraçılığı ilə nəticələnməyəcək. Lakin qərar çıxararkən mütləq ehtiyatlı olun. Böyüklərə qulaq asın.

**OXATAN** - Narahatçılığa heç bir əsas yoxdur. Bütün sutkanı xoş təəssüratla başa vuracağınız güman olunur. Sevgi məsələlərində əməli addımlar atmağınız tələb olunur. Prosesləri dondurmayın.

**OĞLAQ** - Təəssüf ki, bu gün ulduzlardan hansısa uğur gözləməyiniz əbəsdir. Yaxşısı budur, əsas qüvvənizi əmək fəaliyyətinə yönəldəsiniz. Başqalarının məsləhəti ilə hərəkət etməyin.

**SUTÖKƏN** - Həmkarlarınızla münasibətlərinizdə soyuqluq yaranmaması üçün bir qədər güzəştə getməyiniz məsləhətdir. Yersiz iddialarınızı bir qədər məhdudlaşdırın. Axşamsa qonaq gedin.

**BALIQLAR** - Bu gün əsas enerjinizi fəaliyyətə yönəldin. Çünki digər sahələrdə hansısa uğur gözlənilmir. Təxminən saat 14-dən sonra şəxsi işlərinizdə ilkin irəliləyişlər nəzərə çarpacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çılpaqlar üçün restoran iyunda açılacaq



İngiltərənin ilk çılpaq restoranı Londonda açılacaq. İyun ayında fəaliyyətə başlayacaq restoran üçün indidən 10 min nəfər növbəyə yazılıb. "Bunyadi" adlı restoran hind dilində "başlanğıc, təbii" mənasını verir. Cəmi 3 ay xidmət göstərəcək restoranın müştəriləri üçün qəribə vədlər də verilir. Onların "həqiqi azadlığı yaşaması" üçün dünyanın tək bir qitədən ibarət olduğu yüz milyonlarla il öncəyə, cib telefonlarının, lampaların olmadığı zamana aparmağı vəd edən restoran sahibləri inanır ki, bununla da "sirli bir dünya"nın qapılarını açacaqlar. Menyuda isə ancaq təbii yeməklərin olacağı vəd edilir. 42 nəfərlik restoran iki bölümdən ibarətdir. Soyunma kabinalarının olacağı restoranda soyunmaq istəməyənlər üçün də bir bölüm yer alacaq. "Bünyadi"də adambaşına düşən məsrəf 60 sterlinq olacaq.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750